www.iqtisadiyyat.com

№ 13 (1008) 29 mart - 4 aprel 2018-ci il

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymət razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# "Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram dünyada ikinci ölkə tapılsın ki, iki il ərzində pambıq tədarükünü altı dəfədən çox artıra bilsin"




**Martın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.**

Dövlət başçısı respublika müşavirəsində giriş nitqində Azərbaycanda pambıqçılığın gələcək inkişafından danışmış, Bərdənin pambıqçılıqda çox böyük ənənələrini qeyd etmişdir. O demişdir: "1970-1980-ci illərdə Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. Bərdəlilər yaxşı bilirlər ki, ulu öndər Heydər Əliyev bu sahəyə çox ciddi diqqət göstərirdi və dəfələrlə Bərdədə olmuşdur. Bərdədə pambıqçılıqla bağlı dəfələrlə zona müşavirələri keçirilmişdir. O illərdə Bərdədə pambığın tədarükü 120 min tona çatmışdır". Dövlət başçısı hazırda Bərdənin uğurla inkişaf etdiyini, burada abadlıq-quruculuq işlərinin geniş vüsət aldığını, eyni zamanda, rayonda infrastruktur layihələrinin uğurla icra edilməsini də vurğulamışdır.

Daha sonra kənd təsərrüfatının inkişafında pambıqçılığın xüsusi əhəmiyyət daşıdığını qeyd edən İlham Əliyev bildirmişdir: "Təsadüfi deyil ki, 1970-1980-ci illərdə Azərbaycanda məhz pambıqçılığa çox böyük diqqət göstərilirdi və o vaxt əkin sahələrinin 22 faizi pambıqçılığa ayrılmışdı. Əlbəttə ki, ondan sonrakı dövrdə biz daha çox ərzaq təhlükəsizliyi məsələləri ilə məşğul olmağa başladıq və pambıqçılığın əkin sahələri azaldı. Ancaq son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha onu göstərir ki, bu sahənin çox böyük gələcəyi var. Zəhmətkeşlər, fermerlər üçün bunun çox böyük gəliri var. Ölkə iqtisadiyyatı üçün də böyük faydası var.

Qeyd etdiyim kimi, 1970-ci illərdə Azərbaycanda pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdır və 1981-ci ildə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır.Heydər Əliyev Azərbaycandan gedəndən sonra hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü bir milyondan 500 min tona düşmüşdür. Müstəqillik dövründə isə pambıqçılıq, demək olar ki, məhv olub gedirdi. Hakimiyyətə gəlmiş təcrübəsiz adamlar, ümumiyyətlə, iqtisadiyyat haqqında heç bir biliyə malik deyildilər, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı heç bir iş görülmürdü. Ümumiyyətlə, Azərbaycanda yaşanan xaos, anarxiya, hərc-mərclik imkan vermirdi ki, ölkəmiz inkişaf etsin. Yalnız 1993-cü ildən sonra - xalq ulu öndərə üz tutaraq onu hakimiyyətə dəvət edəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da inkişaf dövrü başlamış, islahatlar aparılmışdır. Hesab edirəm ki, o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı ən önəmli qərar kənd təsərrüfatında işləyənlərin vergilərdən azad edilməsi idi.

Eyni zamanda, müstəqilliyimizin ilk illərində ölkə qarşısında o qədər ciddi problemlər durmuşdu ki, əlbəttə, pambıqçılığa həm maddi cəhətdən, həm vaxt baxımından diqqət ayırmaq prioritet məsələ deyildi. Ölkə çox ciddi çağırışlarla üzləşmişdi, böyük təhlükələr mövcud idi. 1990-cı illərdə sabitliyin bərpası, Azərbaycana böyük həcmdə investisiyanın cəlb edilməsi, Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün əsas vasitə kimi neft strategiyamızın uğurla icrası – bütün bunlar idi prioritet məsələlər.

Digər tərəfdən, biz ciddi şəkildə bazar iqtisadiyyatına keçidə başlamışdıq və hesab edilirdi ki, bazar iqtisadiyyatı hər şeyi özü tənzimləyəcək. O cümlədən, kənd təsərrüfatı ilə bağlı olan məsələləri bazar iqtisadiyyatı prinsipləri tənzimləyəcək və həll edəcək. Əlbəttə ki, bu yanaşmada böyük həqiqət var, amma, eyni zamanda, - pambıqçılığın tənəzzülə uğramasının timsalında biz bunu görürük, - əgər ciddi dövlət dəstəyi olmasa, kənd təsərrüfatı inkişaf edə bilməz. Nəinki Azərbaycanda, bütün başqa ölkələrdə. Biz bilirik ki, hətta kənd təsərrüfatının inkişafında böyük uğurlar qazanmış aparıcı dövlətlər də kənd təsərrüfatına ciddi subsidiyalar, dotasiyalar verirlər, dövlət dəstəyi göstərilir, bir çox hallarda proteksionist tədbirlər görülür. Hər bir ölkə çalışır ki, öz bazarını qorusun. Əlbəttə, biz də Azərbaycanda kənd təsərrüfatının inkişafına çox ciddi dövlət dəstəyi göstəririk".

Prezident İ.Əliyev son illər ərzində kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərin qazanıldığını, bir çox məhsulların istehsalının yüksək səviyyəyə çatdığını, ixrac potensialının artmasını qeyd etmişdir. Lakin 2015-ci ilə qədər pambıqçılığa lazımi səviyyədə fikir verilmədiyini, lazımi həcmdə sərmayə qoyulmadığını və tədricən Azərbaycanda pambıqçılığın məhv ola biləcəyi təhlükəsini diqqətə çatdırdı: "Statistik göstəricilərə baxmaq kifayətdir görək ki, 2015-ci il pambıqçılıq tarixində ən acınacaqlı il olmuşdur. Cəmi 18 min hektarda pambıq əkilmişdir və cəmi 35 min ton pambıq tədarük edilmişdir.

2015-ci ilin sonlarından etibarən biz bu məsələ ilə ciddi məşğul olmağa başladıq. Qeyd etdiyim kimi, 2016-2017-ci illərdə müşavirələr keçirildi. 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edildi, biz bu işlərlə planlı şəkildə məşğul olmağa başladıq və bu gün gözəl nəticələr haqqında danışa bilərik. İki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatmışdır. Yəni, biz iki il ərzində pambığın yığımını altı dəfə artıra bilmişik. Bu da son hədd deyil. Bu gün biz gələcəkdə pambığın tədarükünü artırmaq üçün görüləcək işlər haqqında danışacağıq.

Biz dövlət xətti ilə böyük həcmdə müasir texnika almışıq, - 500-ə yaxın pambıqyığan kombayn, - onların böyük hissəsi artıq alınıb. Digər texnika - Azərbaycanda istehsal olunan traktorlar, eyni zamanda, xarici texnika, qoşqular. Dünən mən Bərdədə də texnikanın bir hissəsi ilə tanış olmuşam. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Gübrə ilə təminat yaxşılaşır. Azərbaycan dövləti bu sahəni də demək olar ki, öz üzərinə götürüb, 70 faiz güzəştlə gübrələr verilir. Bu sahədə əldə edilmiş uğurlara baxmayaraq, biz daha da ciddi işləməliyik. Gübrələrin keyfiyyəti daha yaxşı olmalıdır, bu sahəyə də böyük diqqət göstərilir.

**Son illərdə meliorasiya sahəsində böyük layihələr icra edilmişdir. On minlərlə hektar torpaqda meliorativ tədbirlər görülmüşdür.**

Pambıqçılıq əməktutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə, son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna da nail ola bilmişik".

Ölkədə keçən ildən başlayaraq pestisid istehsalının başlanmasını qeyd edən Przident İlham Əliyev bu il Sumqayıtda böyük gübrə zavodunun fəaliyyətə başlayacağını diqqətə çatdırdı. Beləliklə, pambıqçılıq tamamilə məhv olub gedəcəkdi. Biz isə buna imkan vermədik. Pambıqçılığı qoruduq, bərpa etdik və bərpa edəcəyik.

* * * * *

Prezident İlham Əliyev müşavirədə yekun nitqi söyləmişdir.

- Giriş sözümdə qeyd etdiyim kimi, biz qısa müddət ərzində Azərbaycanda kompleks tədbirlər nəticəsində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. İndi əsas vəzifə ondan ibarətdir ki, bu müsbət dinamikanı saxlayaq, bunu artıraq və pambıqçılığın gələcək inkişafı ilə bağlı əlavə addımlar ataq. Bu il 22 rayonda pambıq əkiləcək və ümid edirəm ki, bütün bu rayonlarda məhsuldarlıq daha da yüksək olacaq.

Bugünkü çıxışlarda yüksək məhsuldarlıq olan rayonların icra başçıları, fermerlər görülən işlər haqqında məlumat verdilər. Onların sözləri və gördükləri işlər onu göstərir ki, yüksək məhsuldarlığı əldə etmək mümkündür.Əgər hansısa təsərrüfatda hektardan 55, 50, 40, 35 sentner məhsul götürülürsə, demək, bu, mümkündür. Çalışmalıyıq ki, bütün rayonlarda məhsuldarlıq daha da artsın.

Məhsuldarlıqla bağlı bəzi problemlər var və bu problemlər aradan qaldırılmalıdır. Bu problemlər haqqında bugünkü çıxışlarda da məlumat verildi. Elə etməliyik ki, bütün bu qüsurlar, çatışmazlıqlar ciddi təhlil olunsun və biz bunu edirik. Gələcəkdə bu səhvlərə yol verilməməlidir və bundan sonra Azərbaycanda pambıqçılığın inkişafı yalnız məhsuldarlığın artırılması hesabına təmin edilməlidir. Müsbət təcrübə öyrənilməli və geniş tətbiq edilməlidir. Mənfi təcrübə də ciddi təhlil edilməli və gələcəkdə səhvlərə yol verməmək üçün ciddi tədbirlər görülməlidir. Keçən il orta məhsuldarlıq 15,2 sentner idi. Əlbəttə ki, bu, bizi




qane edə bilməz. Bu, çox aşağı göstəricidir. Baxmayaraq ki, qeyd etdiyim kimi, qısa müddətdə - 2 il ərzində biz pambıq tədarükünü 6 dəfə artıra bilmişik və bu gün 200 min tondan çox pambıq təhvil vermişik, məhsuldarlıq, əlbəttə ki, bizi heç cür qane edə bilməz. Əgər biz orta məhsuldarlığı 20 sentner səviyyəsində təmin edə bilsəydik, biz keçən il 270 min ton pambıq götürə bilərdik.
Məndə olan cədvəldə həm yüksək, həm aşağı məhsuldarlıqla seçilən rayonların adları var. Bəzi məlumatları təqdim etmək istərdim. Məhsuldarlığa görə birinci yerdə Tərtər rayonudur – 27 sentner, çox yaxşı göstəricidir. İkinci yerdə Bərdə rayonu – 26,3 sentner. Üçüncü yerdə Biləsuvar – 21,8 sentner, dördüncü yerdə Ağcabədi – 21,5 sentner, beşinci yerdə Ağdam rayonu – 20,6 sentner və ondan sonrakı yerdə Cəlilabad rayonudur – 20 sentner. Bütün başqa rayonlarda məhsuldarlıq 20 sentnerdən aşağı olub – təqribən 18, 15, 13 sentner. Amma elə rayonlar var ki, məhsuldarlıq 10 sentnerdən də aşağı olmuşdur. Mən onların da adlarını çəkmək istəyirəm ki, onlar həm nəticə çıxarsınlar, həm də gələcəkdə öz işlərini daha düzgün qursunlar. Beləliklə, aşağıdan birinci yerdə Neftçala rayonudur – 8,2 sentner. Aşağıdan ikinci Hacıqabul – 8,3, Samux - 8,8, Ucar - 9,3, İmişli - 9,7 sentner. Mən məhsuldarlıq on sentnerdən aşağı olan rayonların adlarını çəkdim. Digər rayonlarda 10 sentnerdən çoxdur. Ancaq bu da əlbəttə ki, bizi heç cür qane edə bilməz. Ona görə bir daha demək istəyirəm, növbəti dövrdə ancaq məhsuldarlığa ciddi diqqət göstərilməlidir və biz çatışmayan bütün məsələləri aradan götürməliyik. Hesab edirəm ki, bu, mümkündür, sadəcə olaraq, işlər düzgün qurulmalıdır. Onu da qeyd etməliyəm ki, biz cəmi üçüncü ildir pambıqçılıqla ciddi məşğuluq. Əlbəttə, indi torpaqların seçilməsi, aqrotexniki tədbirlərin görülməsi, suvarma ilə, gübrələrlə, pestisidlərlə, onların keyfiyyəti ilə bağlı olan problemlər də var. Ona görə çox düzgün təhlil aparılmalıdır ki, gələcəkdə bu səhvlərə yol verilməsin.
Biz növbəli əkin sistemi tətbiq etməliyik. Bu, eyni zamanda, taxılçılığın inkişafına da ciddi təkan verəcəkdir. Emal müəssisələrinin gücünü artırmalıyıq. Hazırda yeni pambıqtəmizləmə zavodları tikilir.Bu, çox müsbət haldır. Əminəm ki, gələcəkdə pambığın tədarükü daha da artacaq, bizə yeni emal müəssisələri lazım olacaq. Bununla bərabər, bu gün fəaliyyətdə olan pambıqtəmizləmə zavodlarının mütləq əksəriyyəti sovet vaxtından qalan müəssisələrdir. Onlar artıq köhnəlib. Düzdür, fəaliyyət göstərirlər, ancaq lazımi səmərə ilə işləmirlər. Ona görə biz gərək emal sənayesini də tədricən yeniləşdirək. Yeni pambıqtəmizləmə zavodlarının tikintisi, eyni zamanda, keyfiyyətə də, məhsuldarlığa da müsbət təsir göstərəcək.
Burada qeyd olundu, bir daha demək istəyirəm ki, fermerlərə keyfiyyətli gübrələr verilməlidir. Keçən mövsümdə gübrələrin keyfiyyəti ilə bağlı bəzi problemlər olmuşdu. Dövlət bu böyük sahəni demək olar ki, öz üzərinə götürübdür. Gübrələrin 70 faizinin pulunu dövlət öz üzərinə götürür. Ancaq elə gübrələr gətirilməlidir ki, onların keyfiyyəti yüksək səviyyədə olsun və müvafiq qurumlar bu il bu məsələyə ciddi nəzarət etməlidirlər.
Bəzi çıxışlarda texnika ilə bağlı fikirlər səsləndi. Əlbəttə ki, biz özümüzü texnika ilə tam təmin edə bilməmişik. Bunun da təbii səbəbləri var. Biz cəmi iki ildir ki, texnika alırıq. Özü də hamımız yaxşı bilirik ki, son iki il ərzində dövlət büdcəmizin xərcləri ilə bağlı çox ciddi işlər aparılır. Yəni, biz lazım olmayan xərcləri ixtisar etmişik. Büdcə gəlirlərimizi sabit vəziyyətdə saxlamaq üçün, əlbəttə ki, biz hər bir xərcə xüsusi diqqətlə baxırıq. Baxmayaraq ki, neftin qiyməti son iki il ərzində çox aşağı səviyyədə idi, bu il də hələ tam bərpa olunmayıb, kənd təsərrüfatı texnikasına çox böyük vəsait ayrılıbdır. Əgər büdcə xərclərinə nəzər salsaq görərik ki, bu texnikanın alınması üçün, doğrudan da, böyük vəsait ayrılmışdır. Son iki il ərzində kənd təsərrüfatı texnikasına 300 milyon manatdan çox vəsait ayrılmışdır. Onun da böyük hissəsi pambıqçılıq texnikasıdır. Fermerlər yaxşı bilirlər ki, biz ən qabaqcıl texnikanı alırıq. Biz pambıqçılıqda dünyanın bir nömrəli texnikasını alırıq. Əvvəlki dövrdə təkcə 370 pambıqyığan kombayn alınmışdır və bu il əlavə 100 pambıqyığan kombayn alınacaq. Lazım olarsa, biz gələcəkdə də texnikanın alınması ilə məşğul olacağıq. Ancaq məlumat üçün bildirmək istəyirəm ki, keçən il, ümumiyyətlə, 10 minə yaxın texnika alınmışdısa, bunun 5700-ü pambıqçılıq üçün alınmışdır. Bu il pambıqçılıq üçün yenə də 3 mindən çox texnika alınacaq. Ümumiyyətlə, texnikanın alınması üçün bu il dövlət büdcəmizdə 160 milyon manat vəsait nəzərdə tutulub, bunun 118 milyon manatı pambıqçılıq texnikasına xərclənəcək. Yəni, bu rəqəmlər özlüyündə göstərir ki, biz pambıqçılığa nə qədər böyük diqqət göstəririk. Digər kənd təsərrüfatı sahələrinə də diqqət göstərilir, o sahələrin səmərəliliyini artırmaq üçün texnika alınır və alınacaq. Ona görə biz, necə deyərlər, hələ təzə başlamışıq və elə etməliyik ki, texnika ilə bağlı növbəti illərdə bir dənə də problem olmasın.
Toxumlar haqqında burada təkliflər səsləndi. Bu, çox ciddi məsələdir, fermerlər bunu yaxşı bilirlər. Toxumlardan, onların keyfiyyətindən çox şey asılıdır. Fermerlərə daha keyfiyyətli toxumlar verilməlidir və bu sahəni stimullaşdırmaq lazımdır. Eyni zamanda, razıyam ki, yerli toxum növləri də yetişdirilməlidir və biz bu məsələ ilə məşğul olacağıq.
Keçən il pestisidlərin keyfiyyəti bəzi hallarda lazımi səviyyədə deyildi və məhsuldarlığa da bunun çox mənfi təsiri olmuşdur. Ona görə bu il bu sahəyə çox ciddi nəzarət olunmalıdır və ancaq yüksəkkeyfiyyətli pestisidlər gətirilməlidir. Nəzərə alsaq ki, artıq Azərbaycan özü bu sahədə yerli istehsala start verib, əminəm ki, bu sahədə bundan sonra problem olmayacaq.
Əlbəttə ki, pambıqçılığın inkişafı və məhsuldarlığın artırılması üçün suvarmanın xüsusi rolu vardır. Bu gün səslənən çıxışda qeyd olundu ki, bu sahədə nə qədər böyük işlər görülür. Ümumiyyətlə bu gün infrastruktur layihələri arasında suvarma demək olar ki, ön planda dır. İlk növbədə ona görə ki, digər infrastruktur layihələri - elektrik enerjisi, təbii qaz, yol infrastrukturu, içməli su layihələri, demək olar, başa çatır, eyni zamanda, ona görə ki, bu sahə bilavasitə kənd təsərrüfatının inkişafına təsir göstərir. Keçən il 100 min hektar torpağın yeni su təminatını təşkil etmişik. Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir və bunun böyük hissəsi pambıqçılığa aiddir. Bu sahədə həm artezian, subartezian quyularının qazılması, kanalların çəkilişi, meliorativ tədbirlərin yaxşılaşdırılması istiqamətində işlər görülür. Bu il kanalların tikintisi ilə bağlı mənim tərəfimdən bir neçə sərəncam imzalanmışdır. Əlbəttə ki, biz gələcəkdə bu işləri davam etdirəcəyik və pambıq yalnız yararlı, yaxşı suvarılan torpaqlarda əkilməlidir.
Əlbəttə, biz müasir irriqasiya sistemlərini tətbiq etməliyik. Dünyada bu sahədə qabaqcıl təcrübə öyrənilməlidir. Əlbəttə, ənənəvi üsullar var, ancaq bu gün bu sahədə inkişaf o qədərdir ki, biz ən qabaqcıl texnologiyaları Azərbaycana gətirməliyik. Kənd təsərrüfatı sahəsində böyük uğurlar qazanmış ölkələrin təcrübəsi tətbiq olunmalıdır ki, biz sudan səmərəli şəkildə istifadə edək. Keçən il Neftçala Sənaye Məhəlləsində pivot suvarma sistemləri zavodunun açılışı olmuşdur. Mən giriş sözümdə qeyd etdim, pambıqçılığın sənaye sahəsinin inkişafına da çox böyük təsiri var. Biz bunu görürük. Əgər biz kənd təsərrüfatı ilə ciddi məşğul olmasaydıq, bu pivot sistemləri zavodu da Azərbaycanda qurulmazdı. Pivot hazırda suvarma sahəsində ən qabaqcıl texnologiyadan biridir, amma təkcə bu deyil. Ona görə bu sistemin Azərbaycanda istehsalı, əlbəttə, çox müsbət haldır və həm özəl şirkətlər, həm dövlət pivot sistemləri alıb quraşdırmalıdır. Ancaq biz suvarma ilə bağlı digər üsullardan da istifadə etməliyik, o cümlədən damcılı suvarma sistemləri də geniş tətbiq edilməlidir.
Biz, eyni zamanda, pestisidlər zavodunun açılışını qeyd etdik. Bu, Sumqayıt Kimya Sənaye Parkında açılmış bir zavoddur. Əminəm ki, bu zavodun istehsal gücü daxili tələbatı tam ödəyəcək, hətta ixrac potensialı yaranacaq. Əlbəttə ki, keyfiyyətə də ciddi nəzarət olunacaq. Elə etməliyik ki, dövlət öz dəstəyini göstərərək pestisidləri alıb fermerlərə təqdim etsin.
Pivot sistemlərini tətbiq edərkən biz məhsuldarlığı qısa müddət ərzində ciddi şəkildə artıra bilərik. Yəni, indi təhlil və qabaqcıl beynəlxalq təcrübə göstərir ki, pivot altında olan pambıq sahələrində hektardan 35-40 sentner pambıq götürmək olar, rahat götürmək olar, daha da çox. Yəni, mən aşağı həddi deyirəm. Ona görə, əgər biz Azərbaycanda pivot sistemlərini geniş tətbiq etsək, - biz bunu edəcəyik, - əlbəttə ki, bu, özlüyündə məhsuldarlığa çox ciddi müsbət təsir göstərəcək.
Bir daha qeyd etməliyəm ki, pambıqçılıq ancaq intensiv üsullarla inkişaf etməlidir.Biz torpaq fondumuza çox ciddi yanaşmalıyıq. Biz indi böyük aqroparklar yaradırıq, 40-dan çox aqropark yaradılır. Onların böyük hissəsi heyvandarlıq üzrədir, eyni zamanda, bitkiçilik sahəsini əhatə edir.Bu aqroparklara yüz min hektardan çox torpaq ayrılmışdır. Ona görə, biz torpaq fondumuza çox böyük səmərə ilə ehtiyatla və diqqətlə yanaşmalıyıq. Biz nəinki pambıqçılığı, kənd təsərrüfatının bütün digər sahələrini də ancaq intensiv üsullarla inkişaf etdirməliyik.
Qeyd etdiyim kimi, pambıqçılığın işsizliyin aradan qaldırılmasına böyük dəstəyi var. Biz bunu keçən il görmüşük. Qeyd etdiyim kimi, 200 minə yaxın insan işlərə cəlb edilib. Bu il ən azı bu qədər insan işlərə cəlb edilməlidir və əlbəttə ki, zəhmətkeşlərin iş şəraiti lazımi səviyyədə təşkil olunmalıdır. Tarla düşərgələri, içməli su ilə, nəqliyyatla təminat lazımi səviyyədə olmalıdır. Həm tədarükçü şirkətlər, həm yerli icra orqanları bu sahəyə xüsusi diqqət göstərsinlər.
Burada da qeyd edildi, dövlət tərəfindən ayrılan subsidiyaların çox böyük təsiri olmuşdur. Yəni, 10 qəpik subsidiya böyük dəstəkdir. Eyni zamanda, biz pambığın satınalma qiymətini tədricən artırmışıq, 41 qəpikdən 60 qəpiyə qaldırmışıq. Biz bunu ona görə edirik ki, vətəndaşlar daha çox pul qazansınlar. Yəni, bizim əsas məqsədimiz bundan ibarətdir. Əlbəttə, pambıq ixracyönümlü məhsuldur və ölkəyə valyuta gətirir. Ancaq əgər biz ümumi valyuta gəlirlərimizi nəzərə alsaq, pambıqdan əldə olunan gəlir onun cüzi faizini təşkil edir. Yəni, bu, maliyyə baxımından o qədər də böyük əhəmiyyət daşıyan sahə deyil. Ona görə pambıqçılığın inkişafı bizim üçün, ilk növbədə, sosial amildir, sosial sahənin gücləndirilməsidir və yəni, işsizliyin aradan qaldırılması istiqamətində bunun çox böyük faydası var. Bu subsidiyaların verilməsi, alış qiymətinin artırılması yenə də bizim sosial siyasətimizi göstərir. Biz istəyirik ki, vətəndaşlar daha da çox pul qazansınlar. Tarlalarda işləyən o vətəndaşlar, əlbəttə, fermerlər daha çox pul qazansınlar və onların rifah halı yaxşılaşsın.
Məhsul yığımı vaxtında aparılmalıdır. Biz keçən il hələ ilin sonuna qədər pambığı yığırdıq. Sonra soyuqlar düşdü, yağışlar yağdı, məhsulun bir hissəsi tarlalarda qaldı. Ona görə yığım vaxtında aparılmalı və işlər elə təşkil edilməlidir ki, burada ləngimələr olmasın.
Qəbul məntəqələri, pambıqtəmizləmə zavodları fasiləsiz elektrik enerjisi ilə təmin olunmalıdır. Keçən il biz buna, demək olar ki, nail olmuşuq. Bu il də bu sahəyə çox ciddi diqqət göstərilməlidir.
Ölkəmizdə geniş vüsət alan kənd yollarının salınması öz növbəsində, kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərir. Əlbəttə, bu, ilk növbədə, kəndlərdə yaşayan vətəndaşların rahatlığı üçün icra edilən layihələrdir. Keçən il 500-dən çox kənddə layihələr icra edildi, bu il isə ən azı 600 kəndin yolu yenidən salınacaq, ən azı, yəni, ondan daha da çox olacaq. Bu da özlüyündə kənd təsərrüfatının inkişafına ciddi təkan verəcək. İtkiləri minimuma endirmək lazımdır.
Əlbəttə, kadr hazırlığına ciddi fikir verilməlidir. Qeyd etdiyim kimi, son illər ərzində - 2016-cı ilə qədər pambıqçılıq tənəzzülə uğradığı üçün bu peşəyə yiyələnmək istəyənlərin də sayı çox az idi. Bu sahə, demək olar ki, ciddi kadr təminatı ilə dəstəklənmirdi. Ona görə indiki şəraitdə Azərbaycan Dövlət Aqrar Universitetində pambıqçılıq ixtisasının yaradılması məqsədəmüvafiq sayıla bilər. Bu, nəzərə alınsın və eyni zamanda, texniki peşə məktəblərində də bu sahəyə xüsusi diqqət göstərilsin. Azərbaycanda pambıqçılığın böyük gələcəyi var. Bizə hazırlıqlı mütəxəssislər, kadrlar, müasir texnologiyaları bilən kadrlar lazımdır. Mən keçən il Saatlı rayonunda keçirilmiş müşavirədə qeyd etmişdim ki, Mingəçevir Yüngül Sənaye Parkının açılışı gözlənilir. Bu ilin fevralında bu parkda birinci zavodlar, fabriklər işə düşdü. Bu, böyük sənaye kompleksi olacaq, Mingəçevir şəhərində işsizliyin aradan qaldırılmasına kömək göstərəcək. İndi iki fabrikdə 700-dən çox insan işləyir. Növbəti dövrdə yeni fabriklərin yaradılması nəzərdə tutulur. İndi hazırlıq işləri gedir. Ancaq qısa müddət ərzində iki böyük iplik fabriki işə düşdü. Mən bunu qeyd etdim, bir daha demək istəyirəm, bu fabriklər 20 min ton iplik istehsal edir. Fabriklər açılana qədər Azərbaycanda iplik istehsalı 24 min ton idi.Altı fabrik fəaliyyət göstərirdi. Bu iki fabrik, demək olar ki, onun yarısını təmin edir. Bu da ixracyönümlü məhsuldur.Biz indi pambığı mahlıca, mahlıcı isə ipliyə çeviririk və ixrac edirik, eyni zamanda, daxili istehsalda bundan istifadə edirik. Yeni iplik fabriklərinin tikintisinə ehtiyac olacaq, çünki bizdə pambıq istehsalı artacaq. Biz elə etməliyik ki, tədarük edilən bütün pambıq, ondan hazırlanan mahlıc Azərbaycanda emal olunsun, ipliyə və ondan sonra hazır məhsula çevrilsin. Biz bu işlərə əlavə dəyər qataraq həm minlərlə yeni iş yeri yaradacağıq, həm də daha böyük qiymətə rəqabətqabiliyyətli məhsul ixrac edəcəyik. Yəni, biz artıq bu işin ortasındayıq. İplik fabriklərinin emal gücü 44 min tondur. Bu, çox yaxşı göstəricidir, daha da artmalıdır. Ondan sonra bununla paralel olaraq hazır məhsulun istehsalı da nəzərdə tutulmalıdır.
Bax, görün, pambığın istehsalı ölkəmizə nə qədər böyük xeyir gətirir. Qeyd etdiyim kimi, bu, ölkəmizə valyuta, yeni texnologiyalar gətirir, nəinki pambıq yetişdirən rayonlarda, indi Mingəçevir şəhərində iş yerləri yaradılır. Çünki bu fabriklər dünyanın ən qabaqcıl texnologiyaları əsasında fəaliyyət göstərirlər.
Keçən il olduğu kimi, bu il də bütün aidiyyəti qurumlar, mərkəzi, yerli icra orqanları, tədarükçü şirkətlər, fermerlər, zəhmətkeşlər bir komanda kimi fəaliyyət göstərməlidirlər. Mövsüm ərzində mövcud olan, yəni, qarşıya çıxacaq problemlər dərhal öz həllini tapmalıdır və elə etməliyik ki, biz bu mövsümü maksimum səmərə ilə başa vuraq.
Mən əmək resursları ilə bağlı rəqəmləri səsləndirdim. İki yüz minə yaxın insan bu işlərə cəlb edilmişdir. Rayonlarda əmək resurslarını müəyyənləşdirmək, onları bu işlərə dəvət etmək üçün yerli icra orqanları işləməlidirlər, məlumat verilməlidir. Yəni, hər gün pul qazanmaq üçün pambıqçılıq çox əlverişli bir sahədir və rayonlarda da əmək resurslarımızın təhlili ciddi aparılmalıdır. Çünki son illər ərzində Azərbaycanda artan iqtisadi fəallıq nəticəsində on minlərlə yeni iş yeri yaradılıb, o cümlədən özəl sektorda. Çünki indi dövlət özəl sektora çox böyük dəstək verir.
Keçən il iqtisadi sahədə sabitləşmə ili olmuşdur, bu il isə inkişaf ilidir. Bu ilin iqtisadi göstəriciləri ürəkaçandır. İki ay ərzində qeyri-neft sənayesi 8 faizdən çox, qeyri-neft sektoru 2,3 faiz, kənd təsərrüfatı 3,4 faiz artmışdır. O cümlədən bitkiçilik 40 faizdən çox artmışdır. Ona görə bu iqtisadi fəallıq, əlbəttə ki, özəl sektorda iş yerlərinin yaradılmasına xidmət göstərir. Eyni zamanda, pambıqçılıqda və kənd təsərrüfatının digər sahələrində çox fəal işlər aparılır. Orada da yeni iş yerləri yaradılır. Artıq bir neçə ildir ki, mənim təşəbbüsümlə dövlət tərəfindən yaradılmış ictimai işlərə vətəndaşlar cəlb olunurlar. Mənə dünən verilən məlumata görə, təkcə Bərdə şəhərində yüzlərlə insan ictimai işlərə cəlb olunub, digər şəhərlərdə də mənzərə təxminən eynidir. Ona görə biz əmək resurslarımızı bilməliyik. Həm mərkəzi, həm də yerli icra orqanları bunun təhlilini aparmalıdırlar. Biz gələcək iqtisadi inkişafımızı, o cümlədən əkin sahələri ilə bağlı planlarımızı, ümumiyyətlə iqtisadi sahə ilə sənaye sahəsi ilə bağlı planlarımızı əmək resurslarımızın düzgün təhlilinin aparılması üzərində qurmalıyıq.
Bizdə demoqrafik dinamika çox müsbətdir, əhali artır. Yaxın gələcəkdə on milyon səviyyəsinə çatacaq. Bu, bizim böyük üstünlüyümüzdür və biz əmək resurslarımızdan səmərəli şəkildə istifadə etməliyik. O cümlədən, builki mövsümdə bu sahəyə ciddi fikir verilməlidir.
Bir sözlə, mən əminəm ki, keçən il əldə edilmiş nəticələrin müsbət və mənfi tərəfləri bu il ciddi təhlil olunacaq. Bu il biz daha da yaxşı nəticələrə çatacağıq, məhsuldarlıq, pambığın tədarükü artacaq və pambıqçılığın inkişafı bundan sonra da sürətlə gedəcək. Bu işlərdə sizə uğurlar arzulayıram.
Bildiyiniz kimi, bir müddət bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda yeni orden təsis edilmişdir – “Əmək” ordeni. Bu təşəbbüsü mən hələ pambıqçılığa həsr olunmuş birinci müşavirədə irəli sürdüm. Bu orden təsis edilib və bu ordenlər artıq verilir. Bu ordenin üç dərəcəsi var. Bu gün bu mərasimdə keçən il pambıqçılığın inkişafında fərqlənən fermerlərə birinci dərəcəli “Əmək” ordenini mən şəxsən özüm təqdim etmək istərdim.



* * * * *

Sonra kənd təsərrüfatının inkişafında xidmətlərinə görə fermerlər Fatma Hüseynovanın, Tofiq İsmayılovun və Fazil Musayevin 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunması barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 dekabr tarixli Sərəncamı oxunmuş, Prezident İlham Əliyev fermerlərə 1-ci dərəcəli “Əmək” ordenlərini təqdim etmişdir.

* * * * *

Müşavirədə “MKT İstehsalat Kommersiya” MMC-nin baş direktorunun müavini Rövşən Həsənov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Biləsuvar rayonunun Aşağı Cürəli kəndinin sakini, fermer Fazil Musayev, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, “Azərpambıq” MMC-nin baş direktor əvəzi Zakir Əzimov, Saatlı rayonunun Mircəlal kəndinin sakini, fermer Nizami Məmmədov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış etmişlər.

* * * * *

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonuna səfəri çərçivəsində Yeni Daşkənd-Umudalılar avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

* * * * *

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsində və Torpaqqala kompleksində yaradılan şəraitlə tanış olmuşdur.

* * * * *

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonunun Cəyirli kəndinin ərazisində fermer Musa Quliyevin 20 hektarlıq pambıq tarlası ilə tanış olmuş, pambıqçılarla görüşmüşdür.

# “Azadlıq fikrinin məşəli qanla sönməz!”

## MART SOYQIRIMI - *100 il*

***31 mart Azərbaycanın tarixində unudulmaz bir gündür. Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.***

***Mart soyqırımı və ya Mart hadisələri — 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın.***

Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Azərbaycan Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyədək qətlə yetirmişdir.

Bu hadisələrin dəhşətini göz önünə gətirməyiniz üçün 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin, Fövqəladə İstintaq Komissiyasının materiallarından bəzi çıxarışları nəzərinizə təqdim edirik:

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilimişdir. **Şamaxı** Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

**Cavanşir** qəzasının 28 kəndi, **Cəbrayıl** qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.

Erməni silahlı dəstələri **Zəngəzur** qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşdülər. Bütövlükdə, bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.

İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra **Qarabağa** yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir.

**Hadisələrin gedişi**

1917-ci il oktyabr devrimi və hakimiyyətə kommunistlərin gəlməsi zamanı yaranmış vəziyyətdən istifadə edən erməni millətçiləri və onların cəmləşdiyi "Daşnaksütyun" partiyası Bakıda və digər yerlərdə azərbaycanlılara qarşı mitinqlər keçirməyə başladılar. 1918-ci il mart ayının 30-da erməni kilsəsi yanında toplaşan daşnak dəstəsi müsəlmanlara ilk atəş açdı. 31 mart səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və başqa məhəllələrə hücum etdilər. Həmin məhəllələri havadan təyyarələr, dənizdən isə hərbi gəmilər bombalamağa başladılar. Ermənilər rusları inandırmışdılar ki, guya İçəri şəhərdə azərbaycanlılar rusları qırıblar. Matroslar bunun yalan olduğunu biləndən sonra atəşi dayandırsalar da, artıq gec idi, alova bürünmüş məhəllələrdə ölənlərin sayı-hesabı yox idi. Erməni millətçi faşistləri heç kimə rəhm etmirdilər, qarşılarına çıxan hər kəsi türk deyə dərhal qətlə yetirirdilər. Onlar evləri qarət edir, adamları yandırır, hamilə qadınları ağılasığmaz işgəncələrlə qətlə yetirirdilər. Ermənilər azərbaycanlılara məxsus məktəbləri, kitabxanaları, mədəniyyət ocaqlarının hamısını yandırırdılar. Hətta İçəri şəhərə hücum zamanı A.Mikoyanın başçılığı ilə yaradılmış "İnqilabı müdafiə" adı ilə çıxış edən bu quldur dəstələri Bakının ən gözəl memarlıq abidələrindən olan "İsmailiyyəni" yandırmış, "Açıq söz", "Kaspi", "Baku" qəzetləri redaksiyalarını dağıtmış, "Təzə pir" məscidinin minarələrini isə top atəşi ilə dəlik-deşik etmişdilər.

Beləliklə, 1918-ci ildə Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər öz istədiklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd göstərmişlər. Bakı kommunası 1918-ci ilin martında cinayətkar planı həyata keçirməyə başlayır. Təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilir. Bundan başqa, "Qırmızı Qvardiya" adı altında yaradılan 10-12 minlik ordunun da 70%-i ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşmaya əsasən, bolşevik-erməni koalisiyası cəbhə boyu hücuma keçir. Martın 30-da axşam saatlarında Bakıda ilk atəş səsləri eşidilir. Təpədən dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdü. Arxiv materiallarına əsasən qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyiti tapılmışdı.

N.Nərimanov Erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında belə bəhs edir: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaqlardan canlarını qurtara bilmədilər".

Milli sülhə və birliyə qarşı "sinfi mübarizə" və "sinfilik" mövqeyindən çıxış edən S.Şaumyan başda olmaqla Bakı bolşevikləri "Bakı Sovetinin Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına" çevirmək yolunu seçdilər. Onlar daşnaqlarla birlikdə "antisovet qiyamına", "əksinqilaba" qarşı mübarizə adı altında 1918-ci il mart ayının axırlarında (30-31-də) milli qırğın təşkil etdilər. Bu, müsəlmanlara qarşı, xüsusilə azərbaycanlılara qarşı milli soyqırımı, Azərbaycanın milli istiqlalına xəyanətkar sui-qəsd idi. Həmin soyqırımı zamanı 12 mindən çox (bəzi sənədlərdə 15 min) günahsız azərbaycanlı qanına qəltan edildi. Bu soyqırımında daşnaq silahlı dəstələri, habelə A.Mikoyanın başçılıq etdiyi "Qızıl Qvardiya" dəstələri xüsusilə fərqlənmişdilər.



Qeyd etmək lazımdır ki, Bakıda qırğın törədilməsinə hələ 1918-ci ilin yanvarında cəhd edilmişdi. Lakin Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov və başqalarının səyi nəticəsində onların yanvar ayında qırğın törətmək planı baş tutmadı. Lakin onlar bu məkrli niyyətlərini mart ayında həyata keçirə bildilər. Beləliklə, dinc əhaliyə qarşı soyqırımı başladı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış istintaq komissiyasının hesabatında bu hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilir.

***Mart soyqırımı zamanı təkcə Bakıda 12 mindən çox adam qətlə yetirildi. Bolşevik-daşnak dəstələrinin bu vəhşilikləri ancaq Bakı ilə bitmir. Onlar Quba, Şamaxı, Kürdəmir, Salyan və Lənkəran qəzalarında soyqırımı davam etdirmişdilər.***

S.Lalayansın dəstələri 3-16 aprel tarixində **Şamaxı** əhalisinə divan tutdu. Yerli erməni və rus-malakan kəndlilərinin köməkliyi ilə təkcə mart ayında Şamaxının 58 kəndi Bakı Sovetinə bağlı erməni ordusu tərəfindən dağıdıldı. Təxminən 8 minə yaxın insan öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaq idi. 1918-ci ildə 15 min əhalisi olan Şamaxının 1921-ci ildə əhalisi təxminən 1700 nəfərə enmişdi.

Ermənilərin 1918-ci il mart və aprel aylarında Şamaxı və ona qonşu kəndlərdə törətdikləri qətliamları isbat edən çoxlu sayda arxiv materialı var. Şamaxı şəhəri və ona qonşu olan kəndlərdə ermənilər tərəfindən törədilən soyqırım hadisələri haqqında 7 cild, 925 səhifədən ibarət araşdırma materiallarında toplanmış məlumatlar ermənilərin cinayət və qətliamlar etdiklərini bir daha göstərir. Onu da qeyd edək ki, adını qeyd etdiyimiz Araşdırma Komissiyası tərəfindən hazırlanan sənədə görə hələ yanvar ayında Bakı Soveti tərəfindən 15 maşın, mart ayının ortalarında isə 60 maşın dolusu silah və 2000 erməni əsgəri Şamaxıya göndərilmişdi.

**Quba** qəzasında da hadisələr eyni istiqamətdə cərəyan edirdi. Daşnak dəstələri Quba qəzasında 122 kəndi yandırdılar. Yerli sakinlər isə min bir əzablarla qətlə yetirildilər. Ermənilər adamların gözlərini çıxararaq "gözmuncuğu" düzəldirdilər. Erməni millətçiləri tərəfindən törədilən bu soyqırım zamanı 30 minə yaxın adam öldürüldü.

Ermənilər bütün Azərbaycanı işğal etməyə cəhd göstərirdilər. Onlar bu dəfə **Qarabağda** yaşayan ermənilərlə birləşib Gəncəyə hücuma hazırlaşırdılar. Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması işğalçıların bütün planlarını pozdu.

Mart hadisələri əslində bolşeviklərin daşnaqlarla birlikdə həyata keçirdikləri milli qırğın idi. Bu qırğının əsas təşkilatçısı olan S.Şaumyan özü də 1918-ci il aprelin 13-də RSFSR XKS-yə yazdığı məktubunda bunu etiraf etmişdi.

***1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni faşistləri 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar. Həmin hadisə Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmışdır.***

**Siyasi-hüquqi qiymətləndirmə**

Azərbaycan Demokratik Respublikası yarandıqdan dərhal sonra 1918-ci ilin mart hadisələrinə, azərbaycanlıların ermənilər tərəfindən məhv edilməsi məsələsinə diqqət yetirdi. 1918-ci il iyul ayının 15-də Nazirlər Soveti mart faciəsinin, İrəvan quberniyasında baş vermiş ağır cinayətlərin tədqiqi və öyrənilməsi üzrə komissiya yaradılması haqqında qərar qəbul etdi. Mart faciəsi və və digər erməni cinayətləri ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq məqsədilə ADR Xarici İşlər Nazirliyində xüsusi struktur yaradıldı. ADR 1919-1920-ciillərin 31 mart gününü ümumxalq hüzn günü kimi qeyd etdi. Lakin ADR torpaqlarımızın işğal edilməsi və azərbaycanlıların soyqırımına məruz qalması məsələsinə hüquqi-siyasi qiymət verilməsi işini başa çatdırmadan süquta uğradı.

31 Mart soyqırımının statistikası bu bəşəri cinayətin dəhşəti haqqında kifayət qədər aydın mənzərə yaradır. Belə ki, hadisələr zamanı Bakı, Şamaxı, Muğan, Quba və Lənkəranda 50 min azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilmiş, 10 minlərlə insan öz torpaqlarından qovulmuşdur. Təkcə Bakıda erməni terrorçuları tərəfindən öldürülənlərin sayı 30 minə çatmışdır. Şamaxı qəzasında 58, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində isə 92 kənd tamamilə yerlə yeksan edilmişdir. Şamaxı qəzasında 7 min nəfər öldürülmüşdür ki, onlardan 1653 nəfəri qadın, 965-i uşaq olmuşdur. Azərbaycanın tarixi ərazisi olan İrəvan quberniyasında 1920 ev yandırılmış, 131 min 900 nəfərisə qətlə yetirilib.

Bütün bu cinayətlərə beynəlxalq ictimaiyyətin laqeyd münasibəti erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı növbəti soyqırım və deportasiya aktlarının törədilməsinə stimul verən əsas amillərdən biri olmuşdur. 1917-22-ci illər ərzində təkcə İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayının 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə qədər azalması, 1948-ci ildə yüz min nəfərdən çox azərbaycanlının Ermənistandan deportasiya edilməsi dünyanın bütöv bir xalqa qarşı həyata keçirilən zorakılıq siyasətinə biganəliyinin nəticəsidir.

*Bu məsələyə bir də Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra qayıtmaq mümkün oldu. 1918-ci ilin mart hadisələrinin 80-ci il dönümündə Azərbaycan Prezidenti Heydər Əliyevin imzaladığı sərəncam erməni millətçilərinin hərəkətlərinə verilən ilk siyasi qiymət oldu. 1998-ci il 26 mart tarixli bu sərəncam Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının formalaşdırılması üçün bir növ proqram sənədidir. 31 mart yenə Azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir və dünya ictimaiyyətinin diqqətini xalqımızın başına gətirilən qanlı faciələrə cəlb edir.*

**Milli kitabxana –anl.az materiallarından istifadə edilmişdir**

# TAP-ın Yunanıstan və Albaniya marşrutu üzrə borularının 85 faizi qaynaqlanıb

Azərbaycan qazının Avropaya nəqli üçün inşa olunan “Trans-Adriatik” (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutu üzrə borularının 85 faizi qaynaqlanıb. Bildirilib ki, bu, iki ölkədə boru kəmərinin 765 kilometrlik marşrutunun 650 kilometri deməkdir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, “Şahdəniz-2”dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada “Snam Rete Gas” şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), “Snam S.p.A.” (20 faiz), “Fluxys” (19 faiz), “Enagás” (16 faiz) və “Axpo” (5 faiz).

# OPEC Azərbaycanla bağlı hesabat verib



Bu il Azərbaycanda neft hasilatı orta hesabla sutkada 0,77 milyon barrel proqnozlaşdırılır.

AZƏRTAC xəbər verir ki, OPEC-in aylıq hesabatına görə, 2018-ci ildə ölkəmizdə neft hasilatının ötən illə müqayisədə sutkada 0,03 milyon barrel azaldılacağı gözlənilir.

Bundan başqa, OPEC yanvar hesabatında proqnozu sutkada 0,76 milyon barrel yaxşılaşdırıb.

# Çin Aktaudan və ya Atıraudan keçməklə Azərbaycana dəmir yolu xətti çəkməyi planlaşdırır

Çin Aktaudan və ya Atıraudan keçməklə Azərbaycana dəmir yolu xətti çəkilməsi məsələsini gözdən keçirir.

KAZİNFORM-a istinadla xəbər verir ki, bu barədə Çin Xalq Respublikasının (ÇXR) Qazaxıstan Respublikasındakı səfiri Çjan Hanhuey mətbuat konfransında bildirib.



Diplomat Çinin Mərkəzi Asiyada böyük planları olduğunu və bunların həm ÇXR-ə, həm də Mərkəzi Asiya ölkələrinə fayda gətirəcəyini qeyd edib. Çjan Hanhuey bildirib: “Özbəkistandan və Qazaxıstandan keçməklə Türkmənistandan Çinə çəkilmiş qaz boru kəməri Honkonqa çatıb. Bu, dünyada ən uzun qaz boru xətti və ən mürəkkəb mühəndis sistemidir. Biz bunu etdik və məhz bu, müasir İpək Yoludur”.

Diplomat, həmçinin əlavə edib ki, Qazaxıstandan keçməklə Mərkəzi Asiya ölkələrinə və Avropaya artıq iki dəmir yolu xətti çəkilib. Səfir deyib: “Bunun ardınca Türkmənistandan və Türkiyədən keçməklə Yaxın Şərqə, daha sonra Aktaudan və ya Atıraudan keçməklə Azərbaycana dəmir yolu xətti çəkilməsi imkanlarını öyrənəcəyik. Bundan ötrü texnologiya mövcuddur”.

# SOCAR Türkiyədə 3 il ərzində 3 milyard dollarlıq investisiya yatıracaq

AZƏRTAC “Anadolu” agentliyinə istinadla xəbər verir ki, bu barədə “SOCAR Turkey Enerji A.Ş.”nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov deyib.

O bildirib ki, 2017-ci il SOCAR üçün uğurlu olub. “Petkim” ötən il həm istehsal, həm də gəlir baxımından rekorda imza atıb. 2017-ci ildə “Petkim”in mənfəəti 1,4 milyard türk lirəsinə çatıb. Trans-Anadolu qaz boru kəmərinin (TANAP) və “Star” zavodunun inşası isə davam edir. 2018-ci ildə onların tikintisi başa çatacaq və son 8 ildə davamlı investisiya qoyulan ən böyük layihələr istismara veriləcək.

Z.Qəhrəmanov qeyd edib ki, SOCAR-ın Türkiyədə planlaşdırdığı 19,5 milyard dollarlıq investisiyanın artıq 12,6 milyard dolları sərf olunub. Davam edən layihələr başa çatdıqda bu rəqəm 16,5 milyard dollara çatacaq. Qalan 3 milyard dollar isə 2018, 2019, 2020-ci illərdə yatırılacaq. “Hazırda yeni layihələr üzərində işləyirik. Bu məsələdə dövlətin də dəstəyi var. 2019-cu ilin əvvəlində yeni investisiya qoyulacaq. 2022-ci ilin sonunda isə yeni bir neft-kimya kompleksinin inşasını başa çatdırmağı planlaşdırırıq”, - deyə Zaur Qəhrəmanov vurğulayıb.

# QARŞILIQLI BORCLAR PROBLEMİ İQTİSADİ TARAZLIĞIN POZULMASINA NECƏ TƏSİR EDİR?

***(Məqalə prof. Yadulla Həsənlinin bu sahədə elmi tədqiqatlarına, o cümlədən "Static Model of Equilibrium Prices on Mutual Debts of Subjects of Global Economy" (Qlobal iqtisadiyyatın subyektlərinin qarşılıqlı borclarının tarazlı qiymətlərinin statik modeli) adlı məqaləsinə həsr olunub)***

Subyektlər arasında qarşılıqlı borclar (debitor - kreditor borcları və ya ödəməmələr) problemi sosialist təsərrüfat sistemi dağıldıqdan sonra keçmiş postsovet ölkələrinin, demək olar ki hamısı üçün xarakterik olmuşdur. Hətta Rusiya Federasiyasında ödəməmələri iqtisadiyyatın bir nömrəli problemi hesab edənlər də olmuşdur. Hazırda ödəməmələr istər ölkədaxili, istərsə də dövlətlərarası bir problemə çevrilmişdir. Belə ki, Sovetlər Birliyi dağıldıqdan sonra keçmiş postsovet ölkələrində təsərrüfat iqtisadi əlaqələrin, o cümlədən nəqliyyat komunikasiya xətlərinin qırılması, münaqişələr və s. əmtəə və xidmətlərin ənənəvi bazarlarının itirilməsinə gətirib çıxardı. Texnoloji avadanlıqların köhnəlməsi, yeni bazara çıxışın çətinliyi və rəqabətqabiliyyətli məhsulların istehsal edilməməsi ölkədaxili və ölkələrarası borclanmanın (ödəməmələrin) sürətlə artmasına səbəb olmuşdur. Həmin dövrdə Azərbaycan Respublikasında ölkədaxili ödəməmələrin (müəssisə və təşkilatların qarşılıqlı debitor və kreditor borcları) həcmi (sistemdaxili borclar nəzərə alınmaqla) ümumi daxili məhsulun (ÜDM) həcmindən böyük olmuşdur. Belə ki, ödəməmələrin (debitor borcalanın) ÜDM-ə nisbəti 1994-cü ildə 68,2%-dən 1998-ci ildə 205,7%-ə yüksəlmiş, sonrakı illərdə tədricən azalaraq 2003-cü ildə 132% təşkil etmişdir. Son illərdə ölkədaxili qarşılıqlı borclar müntəzəm azalmışdır. Lakin dünya iqtisadiyyatı subyektlərinin, o cümlədən ölkələrarası borclar son illər müntəzəm artmaqda davam edir. 2008-ci ildən başlanan qlobal maliyyə böhranı ölkələr arasında qarşılıqlı borclar probleminin aktuallığını bir daha göstərdi. Hazırda dünya ümumi daxili məhsulu təxminən 60 trilyon ABŞ dolları olduğu halda, ölkələrin qarşılıqlı borclarının həcmi 90 trilyon dollar həcmində qiymətləndirilir.

Dünya iqtisadiyyatının bütövləşdiyi, arxitekturasının dəyişdiyi və yeni tələblərə cavab verən çağırışlar fonunda ölkələrin qarşılıqlı ödəməmələri, yəni problemli xarici borcları aktual bir məsələyə çevrilmişdir. Beynəlxalq Maliyyə İnstitutunun 2017-ci ilin üçüncü kvartalına olan məlumatlarına görə, dünya ölkələrinin qarşılıqlı xarici borclarının həcmi 233 trilyon ABŞ dolları dünya ümumi daxili məhsulu isə təqribən 77.99 trilyon ABŞ dolları olmuşdur. Göründüyü kimi, dünya ölkələrinin xarici borcları dünya ümumi daxili məhsulunun 298,8 faizini təşkil edir. Qeyd edək ki, 2012-ci ildə dünya ölkələrinin dövlət borcları 56,3 trilyon ABŞ dolları olmuşdur ki, bu da dünya ÜDM-inin 64 faizini təşkil etmişdir. Beynəlxalq Valyuta Fondu növbəti illərdə dünya üzrə xarici borcların həcmi və bu borcların dünya ümumi daxili məhsuluna nisbətinin müntəzəm olaraq artacağını proqnozlaşdırmışdır. Göründüyü kimi, dünya üzrə xarici borcların artım sürəti dramatik şəkildə ÜDM-in artım sürətini ötmüşdür. Onu da qeyd etmək lazımdır ki, dünya üzrə xarici borcların heç də hamısı problemli deyildir. Lakin müəllif düzgün olaraq belə nəticəyə gəlir: "Xarici borcların artım sürətinin ÜDM-in artım sürətini ötməsi əvvəl-axır problemli borcların yaranması və artmasını şərtləndirir."

Y.H.Həsənli "Qarşılıqlı borc probleminin iqtisadi-riyazi həhlili və həlli yolları ("Kredit təkanı" və "İmtina təkanı" üsulları)" adlı monoqrafiyasında və problemlə bilavasitə əlaqəli elmi məqalələrində subyektlərarası qarşılıqlı borcların tədqiqi və borcların ödənilməsinin effektiv trayektoriyalarının müəyyən edilməsi məqsədi ilə ödəməmələr problemi üzrə görülmiş işləri təkmilləşdirərək ümumiləşdirmişdir. "Kredit təkanı" və "İmtina təkanı" üsullarının alqoritmləri sadə tətbiqi və istifadəsi üçün Delphi dilində proqramlaşdırılaraq avtomatlaşdırılmışdır.

Prof. Y.Həsənli qarşılıqlı borclar problemini (debitor-kreditor borclar) təhlil edilərək, cəmi borclar ödəniləbilən və ödənilə-bilinməyən borclara ayırmışdır. Keyns nəzəriyyəsinin anlayışlarına uyğun olaraq, ödəniləbilən borc funksiyası, borc ləğvinə meyillilik və borc ləğvinin multiplikatoru anlayışları daxil edilərək, qiymətləndirmələr aparmışdır. Göstərilmişdir ki, ödəniləbilinməyən borclar həcmində kredit vəsaiti və ya həmin həcmdə borclardan imtina qarşılıqlı borcları tamamilə yox edir. Qeyd edək ki, ödəniləbilinməyən borclar cəmi borcların həcmindən xeyli kiçik olur. Başqa sözlə, hər vahid vəsaitlə bir neçə vahid borcu ləğv etmək mümkün olur (borc ləğvinin multiplikatoru). İşlənmiş "Kredit təkanı" üsulunun I alqoritminin ilkin mərhələsində qarşılıqlı borcların tamamilə ləğv edilməsi üçün




tələb olunan minimum vəsaitin həcmi müəyyənləşdirilir və həmin vəsait borc subyektləri (məsələn, firmalar, təşkilatlar və ya ölkələr ola bilər) arasında bölünür. Sonrakı mərhələnin addımlarında borc subyektlərinə paylanmış vəsaitlər effektiv şəkildə borcların (kreditor borcların) ödənilməsinə yönəldilərək, borcların tamamilə ləğvinə nail olunur. "İmtina təkanı" üsulu "Kredit təkanı" üsulunun qoşmasıdır. Qarşılıqlı borc matrisi transponirə olunduqdan sonra tətbiq olunan I alqoritm borclardan (debitor borclardan) imtina olunmasının effektiv trayektoriyasını əks etdirməklə qarşılıqlı borcların tamamilə ləğvinə nail olunur. Qeyd edək ki, "Kredit təkanı" üsulunda qarşılıqlı borcların tamamilə ləğvi üçün tələb olunan vəsaitin həcmi "İmtina təkanı" üsulundakı qarşılıqlı borcların tamamilə ləğvi üçün zəruri olan borclardan imtinanın həcminə bərabər olur. Qeyd edək ki, ilkin kreditin və ya ilkin imtinanın miqdarı zəruri həcmdə olmadıqda, borclar tamamilə ləğv olunmasa da, xeyli azaltmaq mümkündür. Bu, ikinci alqoritm vasitəsilə həyata keçirilir. İşlənmiş II alqoritm vasitəsilə qarşılıqlı borclar qismən ləğv edilir, daha doğrusu, ixtiyari M (M>0) miqdarda vəsaitin qarşılıqlı borcların maksimum hansı miqdarda ləğv olunmasının səmərəli trayektoriyası tapılır. II alqoritmin nəticəsində həmçinin M-miqdarda ilkin "kredit"in sonda hansı subyektə qayıdacağı da tapılır. İşlənmiş III alqoritm əvvəlcə müəssisələr arasında qarşılıqlı zaçot (məqbul) aparır və borcların hansı miqdarda azalacağı göstərilir. Daha sonra isə I alqoritmlə (tamamilə ləğv etmə) və ya II alqoritmlə (qismən ləğv etmə) tətbiq edilir. Ümumiyyətlə, II və III alqoritmləri I alqoritmin modifikasiyaları hesab edilə bilər.

"Qlobal İqtisadiyyatın subyektlərinin qarşılıqlı borclarının tarazlı qiymətlərinin statik modeli"adlı məqalənin müəllifi prof. Yadulla Həsənli qarşıya qoyulan məqsəd və vəzifələri dərindən araşdırmaq məqsədilə dünya iqtisadiyyatının inkişaf dinamikasına sistemli və məntiqi ardıcıllıqla nəzər salaraq belə qənaətə gəlir ki, son dövrlərdə yaranan iqtisadi böhranlar əsasən maliyyə sektorundan qaynaqlanmışdır. Xüsusilə, müəllif qeyd edir ki, 2008-ci ildə qlobal maliyyə böhranı - ABŞ-da ipoteka borclarının banklara qaytarıla bilinməməsi, real sektorun banklar tərəfindən maliyyələşməsindəki problemlər, neftin dünya bazar qiymətinin kəskin düşməsi, bir sıra Avropa İttifaqı ölkələrinin (Yunanıstan, İspaniya, Portuqaliya və s.) beynəlxalq maliyyə qurumlarından və digər ölkələrdən aldıqları kreditləri (xarici borclarının) qaytara bilməmələri buna bariz nümunədir.

Müəllifin öz araşdırmasında qarşısına qoyduğu əsas hədəflərdən biri də odur ki, "bəs, bu halların yaranmasına səbəb nədir?" və "iqtisadi tarazlıq necə bərpa olunur?". Buna siyasi, iqtisadi və s. kimi çoxsaylı amillər səbəb ola bilər. Qeyd edək ki, dünya iqtisadiyyatı, o cümlədən milli iqtisadiyyatların davamlı inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən belə problemlərin həlli elmi ictimaiyyətin diqqətini cəlb edir. Məhz iqtisad elmləri doktoru, professor Yadulla Həsənlinin elmi əsərləri, xüsusilə də "Static Model of Equilibrium Prices on Mutual Debts of Subjects of Global Economy" (Qlobal iqtisadiyyatın subyektlərinin qarşılıqlı borclarının tarazlı qiymətlərinin statik modeli) adlı son elmi məqaləsi aktual bir mövzuya həsr olunmuşdur. Qeyd edək ki, bu əsərin əsas müddəaları və əldə edilən praktik nəticələr haqqında 2016-cı ildə keçirilən 10-cu IEEE İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi (AICT2016) adlı Beynəlxalq Konfransda məruzə edilmiş, əsər məruzələr toplusunda öz əksini tapmış və dünyanın ən nüfuzlu Web of Science (Thomson Reuters), Scopus, Elsevier Engineering Information, EBSCO, Cambridge Scientific Abstracts (CSA) / ProQuest, American Mathematical Society (AMS) və s. elm bazalarına daxil edilmişdir.

Elmi məqalədə diqqəti cəlb edən əsas məqamlardan və qarşıya qoyulan məqsədlərdən biri də "ölkələrarası mövcud qarşılıqlı borcların bazar dəyəri və valyuta kursları necə olmalıdır ki, bazar tarazlıqda olsun və borclar qaytarıla bilinsin?" sualına cavab tapmaqdır. Qeyd edək ki, bu məqalə həcminin o qədər də böyük olmamasına baxmayaraq, yüksək elm tutumluğuna malikdir. Belə ki, dünya iqtisadiyyatının və milli iqtisadiyyatların rasional və səmərəli inkişafı baxımından qarşıya qoyulan qlobal bir problemin dünya, eləcə də yerli xüsusiyyətlər nəzərə alınmaqla dəqiq riyazi-iqtisadi həllinin tapılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Prof. Yadulla Həsənli tərəfindən çox incəliklə və səlis formatda qlobal iqtisadiyyatın subyektlərinin qarşılıqlı borcları (ölkələrin debitor və kreditor borcları) problemi matris şəklində yazılaraq oyunlar nəzəriyyəsini tətbiq etməklə həll edilmişdir. Burada, problem bir-birinə qoşma olan ikixətti proqramlaşdırma məsələsinə gətirilərək, Simpleks üsulu tətbiq edilmişdir. Qarışıq strategiylarda oyunun həlli subyektlərin mövcud debitor və ya kreditor borclarının bazar dəyərini müəyyənləşdirməyə imkan verən qiymət indeksi kimi interpritasiya edilərək, elmi və praktik baxımdan əsaslandırılmışdır. Müəllif praktik nöqteyi-nəzərdən elmi məqaləsində göstərir ki, bu indeks vasitəsilə dünya iqtisadiyyatını tarazlığa gətirə bilən borcların bazar dəyərini hesablamaq mümkündür.Maraq doğuran məqamlardan biri də odur ki, müəllif dünya üzrə xarici borcların bazar dəyəri ilə faktiki borcların nominal həcmini müqayisə etməklə "qlobal böhran indeksi" daxil etmiş, elmi və praktik əsaslandırmalar aparmışdır. Daha sonra prof. Yadulla Həsənli borcların qiymət indeksinin ölkələrin valyuta kursuna təsirini təhlil etmiş və analitik ümumiləşdirmələr aparmışdır. Müəllif tərəfindən işlənmiş model dünyanın 10 ən iri ölkəsinin məlumatları əsasında realizə olunmuşdur.

Qeyd etmək istərdik ki, Yadulla Həsənli tərəfindən ilk dəfə olaraq işlənmiş bu iqtisadi-riyazi model Azərbaycan iqtisadiyyatının subyektlərinin (müəssisə, təşkilat, dövlər qurumları və s.) 1995-1998-ci illəri əhatə edən qarşılıqlı borcları üzərində realizasiya olunaraq dəyərli nəticələr əldə edilmişdir ki, bu nəticələr də real proseslərə adekvat olmuşdur.

Ümumiyyətlə, yuxarıda qeyd edilənləri və prof. Yadulla Həsənlinin bu sahədə apardığı elmi araşdırmalarını, xüsusilə də "Static Model of Equilibrium Prices on Mutual Debts of Subjects of Global Economy" (Qlobal iqtisadiyyatın subyektlərinin qarşılıqlı borclarının tarazlı qiymətlərinin statik modeli) adlı məqaləsinin qlobal və milli iqtisadiyyatların davamlı inkişafı üçün elmi və praktik cəhətdən mühüm əhəmiyyət kəsb edən əsas müddəalarını və nəticələrini nəzərə alaraq hesab edirik ki, müəllif tərəfindən təklif edilən praktik üsul və onun nəticəsi kimi formalaşan "Böhran İndeksi"nin qlobal səviyyədə geniş tətbiq imkanları vardır.

**Qorxmaz İmanov,**
**AMEA-nın müxbir üzvü,**
**Dövlət mükafatı laueratı, i.e.d., prof.,**

**Nazim Hacıyev,**
**Harvard Universiteti, ABŞ**
**"Dəvətli tədqiqatçı" dosent, i.e.n.**

# Belarus Azərbaycana bitkiçilik məhsulları tədarükünü artıracaq



2018-ci ildə Belarus Asiya ölkələrinə bitkiçilik məhsullarının ixracını artırmağı planlaşdırır.

AZƏRTAC BELTA agentliyinə istinadla xəbər verir ki, bunu Belarusun kənd təsərrüfatı və ərzaq nazirinin müavini Vladimir Qrakun keçirdiyi mətbuat konfransında bildirib. Nazir müavini deyib: "Düşünürəm ki, bütün hallarda Rusiyaya tədarük edəcəyimiz məhsul həcminin 2017-ci il səviyyəsindən az olmamasına çalışacağıq. Lakin digər ölkələrə - Azərbaycan, Özbəkistan, Gürcüstan və Çinə də məhsul ixracını artıracağıq". Söhbətin kartof, tərəvəz və meyvə ixracından getdiyini xatırladan V.Qrakun əlavə edib ki, Rusiya əlavə məhsula ehtiyac duyarsa, Belarus buna hazırdır. 2017-ci ildə 380 min ton kartof ixrac olunub ki, bu, nazir müavininin sözlərinə görə, ötən illərin göstəricilərindən olduqca çoxdur. Belarus kartofu Rusiya, Özbəkistan, Azərbaycan və daha az həcmdə Serbiyaya göndərilib. Nazir müavini onu da əlavə edib ki, ixracatın artması əsasən kartofçuluq, tərəvəzçilik və meyvəçiliyin inkişafı üzrə proqramın vaxtında həyata keçirilməsinin nəticəsidir. O diqqətə çatdırıb ki, kartof, tərəvəz və almanın saxlanması üçün anbarların tikintisinə nail olunub və bunun sayəsində bütün mövsümlərdə ticarəti həyata keçirmək və məhsul ixracını artırmaq mümkündür.

# Azərbaycan meyvə-tərəvəz məhsullarının ixracı üçün prioritet bazarlar hansılardır?

"Rusiya və MDB ölkələri bu gün Azərbaycanın meyvə-tərəvəz məhsullarının ixracı üçün prioritet bazarlardır".



Bunu Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev deyib.

"Bu gün bizim üçün əsas ixrac istiqaməti Rusiya bazarıdır. Azərbaycan həmçinin MDB ölkələrinə də məhsul ixrac edir, əsasən ölkəmizdən şimalda yerləşən ölkələrə. Avropaya gəlincə, orada hal-hazırda bu sahədə güclü rəqabət var. Şimali Avropa bazarları Şimali Afrika və Cənubi Avropa ölkələri hesabına təmin edilir. Bu gün Şimali Avropa ölkələrində istehlak tədarükünün həcmindən çox deyil", - deyə B.Quliyev bildirib.

Qeyd edək ki, Azərbaycanda sahibkarlığın inkişafı üçün hökumət müxtəlif tədbirlər həyata keçirir: biznesə güzəştlər tətbiq olunur, dövlət strukturları nəzdində apelyasiya şuraları yaradılır, qanunvericilik müasirləşdirilir və genişmiqyaslı islahatlar keçirilir. Belə ki, ölkədə sənaye parkları və məhəllələri, aqroparklar və yüksək texnologiya parkları fəaliyyət göstərir.

# Dövlət yerli istehsalçıları və ixracatçıları tam dəstəkləyir



Azərbaycanda dövlət yerli istehsalçıları və ixracatçıları tam dəstəkləyir.

Bunu Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev deyib.

O bildirib ki, bu məsələdə təşkilat sahibkarlarla sıx təmasdadır: "Onu deyə bilərəm ki, Azərbaycanda bütün dövlət strukturları meyvə-tərəvəz məhsulu istehsalçıları və ixracatçılarını tam dəstəkləməyə çalışır".

# Azərbaycan Səudiyyə Ərəbistanı ilə ticarət və investisiya əməkdaşlığının qurulması üçün prioritetlərini açıqlayıb

Azərbaycan peyk texnologiyası, neft-kimya, neft, qaz, kənd təsərrüfatı və turizm sahələrində Səudiyyə Ərəbistanı ilə əməkdaşlığın qurulmasında maraqlıdır.

Trend-in məlumatına görə, bunu "Asharq Al-Awsat" portalına Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev deyib.

O, bildirib: "Azərbaycan iki peyk buraxıb və bu sahədə qabaqcıl səviyyəyə çatıb. Biz peyk üçün ehtiyat hissələrinin qabaqcıl istehsalçılarından biri olmağa çalışırıq".

Səfir qeyd edib ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında siyasi əlaqələr yüksək səviyyədədir və bir neçə sahədə iqtisadi, ticarət və investisiya əməkdaşlığına imkan yaradıb.

Ş.Abdullayev əlavə edib ki, Azərbaycan Krallığa kənd təsərrüfatı məhsulları, xüsusilə, buğda, meyvə və tərəvəzlər, həmçinin bəzi sənaye malları ixrac etməyə hazırdır. Səfir vurğulayıb ki, Azərbaycanda turizm sahəsi prioritet investisiya və iqtisadi sahələrdən biri hesab olunur və ötən il Azərbaycana Səudiyyə Ərəbistanından 35 000 turist gəlib. O, qeyd edib ki, Azərbaycan Səudiyyə Ərəbistanı ilə ötən il 17 milyon dollar təşkil edən ticarət dövriyyəsinin həcmini artırmaq istəyir.

Səfir, həmçinin investisiya əməkdaşlığını genişləndirmək istəyini diqqətə çatdıraraq bildirib ki, Azərbaycan hökuməti investorlara imtiyazlar verməyə hazırdır və vergilərdə güzəştlər edəcək.

"Asharq Al-Awsat" portalı qeyd edir ki, Şahin Abdullayev Səudiyyə Ərəbistanının ticarət-sənaye palataları Şurasının sədri Əhməd əl-Raci ilə ticarət və investisiya əməkdaşlığının mümkün inkişaf yollarını müzakirə edib. Raci qeyd edib ki, Səudiyyə Ərəbistanının biznes sektoru Azərbaycanın investisiya imkanlarının öyrənilməsində maraqlıdır.

# KRİPTOVALYUTANIN ANATOMİYASINA DAİR

Son zamanlar internet şəbəkəsində yaranan və işlənən qeyri-mərkəzləşdirilmiş rəqəmsal valyuta kimi yeni kriptoqram termini dövriyyəyə daxil olmuşdur.

**Kriptovalyuta** rəqəmsal valyutanın bir növüdür, onun yaradılması və nəzarəti kriptoqrafik metodlara əsaslanır. Bir qayda olaraq, kriptovalyuta qeyri-mərkəzləşmişdir.

Bu sistemin verilənlərinin fəaliyyəti blokçeyn texnologiyasına əsaslanır.

**Blokçeyn** (ing. "blockchain") informasiyanı ehtiva edən müəyyən qaydalar üzrə qurulmuş fasiləsiz ardıcıl bloklar zənciridir (əlaqəli siyahıdır). Transaksiyalar haqqında informasiya, adətən, şifrələnmir və əlçatandır. Transaksiya bloklarının zəncirinin bazasının dəyişməzliyini təmin etmək üçün kriptoqrafiya elementlərindən istifadə olunur. "Kriptoqrafiya" termini 2011-ci ildə "Forbes" jurnalında dərc olunmuş Bitcoin "Crytpo currency" (kriptoqrafiya valyutası) sistemi haqqında məqalə çap olunduqdan sonra möhkəmlənmişdir. Bitcoinin müəllifinin özü digərləri kimi "elektron nağd pul" (ing. "elektronic cash") terminindən istifadə etmişdir. Emissiya üçün müxtəlif kriptovalyutalar fərqli üsullardan istifadə edir: mayninq, forjinq və ya ICO.

**Mayninq**, eləcə də hasiletmə (ing. "mining" - faydalı qazıntıların hasilatı) bölüşdürülmüş platformanın saxlanılması və müxtəlif kriptovalyutalarda, xüsusilə bitcoində yeni vahidlər və komisyon rüsumlar formasında mükafat almaq imkanı ilə yeni blokların yaradılması üzrə fəaliyyətdir.

Mayninq yeni blokların yaradılmasında vahid texnologiya deyil. Alternativ kimi forjinq (mintinq) və ICO-dan istifadə olunur.

Forjinq (ing. "forging" – döymə, döyülmə (dəmiri) - nallanma və ya mintinq (ing. "minting" - sikkələrin zərb edilməsi) - yeni vahidlər və komisyon rüsumları formasında mükafat almaq imkanı ilə sabitlik payının təsdiq edilməsi əsasında blokçeyndə yeni blokların müxtəlif kriptovalyutalarda yaradılmasıdır.

Kiptovalyutaların iqtisadi mahiyyəti və hüquqi statusu haqqında diskussiyalar gedir. Ölkədən asılı olaraq kriptovalyutalar tədiyyə vasitəsi, spesifik əmtəə kimi nəzərdən keçirilir, o, dövriyyədə məhdudiyyətlərə malik ola bilər (məsələn, bank idarələri üçün onlarla əməliyyatlara qadağa qoyulması).

Məxfi tədiyyələr (ödənişlər) üçün kriptoqrafiyadan - Devid Çomun "Digi Cash" sistemindən 1990-cı ildən istifadə edilməyə başlandı ki, onun şirkəti 1998-ci ildə iflas oldu. Lakin bu tədiyyə sistemi mərkəzləşdirilmişdi.

İlk dəfə "kriptovalyuta" terminindən "bitcoin" tədiyyə sistemi yarandıqdan sonra istifadə edilməyə başlandı. "Bitcoin" sistemi Satosi Nakamoto ləqəbi altında bir nəfər və insanlar qrupu tərəfindən 2009-cu ildə işlənib hazırlanmışdır. Sonralar forkalar (ing. "fork" ayrıc, çəngəl deməkdir və digəri üçün start qismində proqram layihəsinin kod bazasından istifadə olunmasını bildirir) meydana gəldi:

1. **Namecoin** (ing. "name" - ad, "coin" - sikkə) bitcoin texnologiyasına əsaslanan sərbəst kombinasiyaların qorunması sistemidir. Bu bit domen zonası daxilində qeydiyyat üçün mərkəzləşdirilmiş DNS (ing. "Domayn Name-System" – domen adları sistemi) və domenlər haqqında informasiya əldə etmək üçün kompüter paylaşma sistemidir.
2. **Litecoin** (ing. "lite" yüngül, "coin" sikkə deməkdir və bitcoin faktorudur, eyniadlı kriptovalyutanı istifadə edən pirinq (ing. "piring" - qonşuluq) elektron tədiyyə sistemidir) "scrypt"dan ("eskript" kimi oxunur və parol əsasında açarın formalaşmasının adaptiv kriptoqrafik funksiyasıdır) az-az istifadə edir.
3. **PP Coin** (2012-ci ilin avqustunda Skott Nadal və Sanni Kinq tərəfindən yaradılan pirinq elektron tədiyyə sistemidir) "proof-of work"/"proof-of-stake" hibrid mexanizmindən istifadə edir:
4. **Noxacoin** (PP Coinə oxşardır, lakin "scrypt" dan istifadə edir və s.) 2013-cü ilin iyul ayına qədər "Ripple"dən (Ripple şirkət tərəfindən hazırlanmış, qaytarılan tədiyyələrsiz valyuta mübadilə əməliyyatlarına istiqamətlənmiş tədiyyə sistemləri üçün kriptovalyuta valyutasıdır) başqa bütün kriptovalyutaların proqram təminatı "bitcoin" açıq başlanğıc kod sisteminə əsaslanırdı. 2013-cü ilin iyul ayından başlayaraq müxtəlif infrastrukturu dəstəkləyən kriptovalyuta ilə yanaşı, digər platformalar meydana gəldi, məsələn, birja ticarəti, mağazalar, menecerlər və s. Belə kriptoplatformalara **BitShares** (ing. "bit" – hissəcik, "share" - pay), **Mastercoin** (rəqəmsal valyuta və komunikasiya protokolu), **Nxt** (şəbəkə paylayıcı kritoqrafiya platforması) aiddir. Digər platformalar anons (elan) olunur.

Ümumiyyətlə, 2015-ci ilin mart ayına qədər 200 kriptoqram mövcud idi. Bəzi populyar kriptovalyutaların siyahısı belədir.

| ili | Statusu | Adı | İfadə edilmə | Banisi | Heş funksiya | Blokların vertikasiyası |
|---|---|---|---|---|---|---|
| 2009 | Aktivdir | Bitcoin | BTC, XBT | Satosi Nakamoto | SHA-256d | PoW (proof-of-work) |
| 2011 | | Litecoin | LTC | Çarlz Li | Scrypt | PoW |
| 2012 | | Peercoin | PPC | Sanni Kinq (ləqəbi) | | PoW |
| 2013 | | Dogecoin | Do6E, XD6 | Cekson Palmer& Billi Markus | Scrupt | PoW |
| 2014 | | Auroracoin | AUR | Baldur Odinsson (ləqəbi) | Scrupt | PoW |
| 2015 | | Ethereum | ETN | Vitalik Buterin | Ethash | PoW |
| 2016 | | Decred | DCR | - | Blake-256 | PoW/POS Hibrid |
| 2017 | | Bitcoin | BSH,BCC | - | SHA-256D | PoW |
| 2017 | | Ubiq | UBQ | Culian Yap | Ethash | PoW |

Kriptovalyutanın hüquqi statusu ölkədən-ölkəyə xeyli dərəcədə dəyişir və əvvəlki kimi qeyri-müəyyəndir. Eyni zamanda, bir sıra ölkələr onun ticarətinə və istifadə edilməsinə icazə vermiş, digərləri isə onu qadağan etmiş və ya məhdudlaşdırmışdır. Oxşar olaraq müxtəlif dövlət idarələri, təşkilatları və məhkəmələri "bitcoin"i müxtəlif cür təsnif etmişlər. Çin Xalq Bankı 2014-cü ilin əvvəlində tez bir zamanda qanun qəbul edərək, Çində maliyyə idarələri tərəfindən "bitcoin"lərin emalına qadağa qoydu. (ardı var)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SIĞORTA KOMMERSİYA ŞİRKƏTİNİN 01 yanvar 2018-ci il tarixinə BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 1958324 | 2685108 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 593782 | 558290 |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 581711 | 523540 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 2375000 | 4158367 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 2375000 | 4158367 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 76594 | 58692 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 5585411 | 7983997 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | 4072980,29 | 4465894,43 |
| birbaşa sığorta üzrə | 0 | 307700 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | 307054 | 164156 |
| - təkrarsığortaçı üzrə | 307054 | 164156 |
| - təkrarsığortalı üzrə | 0 | 0 |
| asılı təşkilatlar üzrə | 1600413,29 | 2635476,43 |
| büdcə üzrə | 1002514 | 54899 |
| iddia tələbləri üzrə | 1162606 | 1164839 |
| işçi heyəti üzrə | | |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 393 | 138824 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 9954819 | 9483031 |
| kassa | 10606 | 3394 |
| hesablaşma hesabı | 6233022 | 6119877 |
| valyuta hesabı | 5772 | 13045 |
| depozit hesablar | 3705419 | 3339796 |
| sair pul vəsaitləri | | 6919 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 0 | 0 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 9465268,8 | 2108249,63 |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 9465268,8 | 2108249,63 |
| **Sair qısamüddətli aktivlər:** | 2049715 | 1503996 |
| gələcək hesabat dövrlərinin xərcləri | 2022401 | 1503996 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | 27314 | |
| **Sair aktivlər** | 29921 | |
| ***Cəmi qısamüddətli aktivlər*** | 25572704,09 | 17561171,06 |
| **CƏMİ AKTİVLƏR** | 31158115,09 | 25545168,06 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 9000000 | 9000000 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | 986050 | 1934806 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | 1934806 |
| digər kapital ehtiyatları | 986050 | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 4368912,89 | 3633011,47 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 4368912,89 | 3633011,47 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | 14354962,89 | 14567817,47 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | 16797557,2 | 10745287,59 |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 16797557,2 | 10745287,59 |
| **Qarşısıalınma tədbirləri fondu** | | 97729 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | 0 | 48034 |
| əməyin ödənilməsi üzrə | | 48034 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0 | 0 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 0 | 0 |
| təkrarsığortaçı üzrə | | |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 16797557,2 | 10891050,59 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 5595 | 18 |
| əməyin ödənilməsi üzrə | 5297 | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 298 | 18 |
| **Sair qısamüddətli öhdəliklər:** | 0 | 86282 |
| gələcək hesabat dövrünün gəlirləri | | 82623 |
| alınmış avanslar | | 3659 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 5595 | 86300 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 16803152,2 | 10977350,59 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 31158115,09 | 25545168,06 |

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 49881693,3 |
| birbaşa sığorta üzrə sığorta haqları | 41956914 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 0 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 5301877,78 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 2622901,52 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -1304749,56 |
| **İnvestisiya gəlirləri üzrə** | **250909** |
| **Subroqasiya gəlirləri** | **495** |
| **Sair gəlirlər** | **6128** |
| **CƏMİ GƏLİRLƏR** | 48834475,74 |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | 35958058,66 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 12455002 |
| qaytarılan sığorta haqları üzrə | 36239 |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 23369088,66 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | **97729** |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 7581756,61 |
| **Sair xərclər** | **1661649** |
| **CƏMİ XƏRCLƏR** | 45201464,27 |
| **Maliyyə mənfəəti (zərəri)** | 3633011,47 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 3633011,47 |
| **Mənfəət vergisi** | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 3 633 011,47 |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 0 | 1778696,31 |
| Əlavə dəyər vergisi | | |
| Gəlir vergisi | 258452 | 258452 |
| Əmlak vergisi | 25469,39 | 18159,57 |
| Torpaq vergisi | | |
| Aksizlər | | |
| Ödəmə mənbəyində vergi (4%) | 23952,34 | 23952,34 |
| Sair vergilər ISB-5% | 533147,37 | 452437,11 |
| Sosial sığorta və təminat | 675697,56 | 675697,56 |
| Məcburi ödənişlər (0,3%) | 262352 | 53641,73 |
| İqtisadi sanksiyalar | | |

**Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti-nin rəhbərliyinə**

**Auditor Rəyi**

Biz Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq Audit Standartlarına (İSA) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik . Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu haqqında qanununa uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətinin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir.Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermirki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Premium Audit" MMC
Bakı, Azərbaycan Respublikası
27 fevral 2018-ci il.

"Premium Audit" MMC-nin direktoru N.N.Kərimov

"Premium Audit" MMC-nin auditoru A.H.Quliyev

# «AXA MBASK SŞ» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 4 580 387,60 | 4 671 433,58 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 65 913,71 | 65 913,71 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 3 097 958,60 | 3 819 820,30 |
| **Təxirə salınmış vergi aktivləri** | 753 675,64 | 746 033,93 |
| **Uzunmüddətli debitor borcları** | 0,00 | 0,00 |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 400 000,00 | 400 000,00 |
| dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 400 000,00 | 400 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 8 897 935,55 | 9 703 201,52 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 27 387,07 | 36 321,93 |
| **Debitor borcları:** | 4 294 478,05 | 4 539 554,59 |
| birbaşa sığorta üzrə | 3 046 019,89 | 2 888 665,66 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 765 710,05 | 297 699,19 |
| - təkrarsığortaçı üzrə | 63 272,52 | 63 272,52 |
| - təkrarsığortalı üzrə | 702 437,53 | 234 426,67 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| DB büdcə üzrə | 160 995,45 | 986 188,23 |
| iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| işçi heyəti üzrə | 0,00 | 0,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| QM sair debitorlar | 321 752,66 | 367 001,51 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 21 350 866,01 | 15 703 240,60 |
| kassa | 4 595,93 | 9 145,57 |
| hesablaşma hesabı | 135 725,04 | 284 091,06 |
| valyuta hesabı | 173 011,98 | 1 948 002,81 |
| depozit hesablar | 21 018 322,00 | 13 449 617,00 |
| sair pul vəsaitləri | 19 211,06 | 12 384,16 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 528 327,92 | 2 747 540,33 |
| QM dövlət qiymətli kağızları | 528 327,92 | 2 747 540,33 |
| QM qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 3 106 348,34 | 928 821,95 |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| TS qeyri-həyat sığortası sahəsi üzrə | 3 106 348,34 | 928 821,95 |
| **Sair qısamüddətli aktivlər:** | 86 044,45 | 111 818,36 |
| gələcək hesabat dövrlərinin xərcləri | 0,00 | 0,00 |
| verilmiş avanslar | 83 406,29 | 105 128,40 |
| təhtəl hesablar | 2 638,16 | 6 689,96 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | 29 393 451,84 | 24 067 297,76 |
| **CƏMİ AKTİVLƏR** | **38 291 387,39** | **33 770 499,28** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 19 733 738,00 | 19 733 738,00 |
| **Emissiya gəliri** | 255 528,69 | 255 528,69 |
| **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| **Kapital ehtiyatları:** | 3 020 264,56 | 2 011 633,54 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 2 011 633,54 | 2 011 633,54 |
| digər kapital ehtiyatları | 1 008 631,02 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | -3 029 904,72 | -3 398 011,38 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 403 705,44 | -368 106,66 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -3 433 610,16 | -3 029 904,72 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | 19 979 626,53 | 18 602 888,85 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatları:** | 15 431 986,53 | 12 356 286,29 |
| Həyat sığortası sahəsi üzrə : | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 15 431 986,53 | 12 356 286,29 |
| **Qarşısıalınma tədbirləri fondu** | 0,00 | 567 543,90 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | 0,00 | 0,00 |
| **Kreditor borcları :** | 0,00 | 0,00 |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| KB büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 2 131 385,34 | 1 673 026,18 |
| təkrarsığortaçı üzrə | 2 131 385,34 | 1 673 026,18 |
| təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 17 563 371,87 | 14 596 856,37 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | 748 388,99 | 570 754,06 |
| QM əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| QM büdcə üzrə | 0,00 | 0,00 |
| QM sosial sığorta və təminat üzrə | 50 561,28 | 46 361,09 |
| QM digər məcburi ödənişlər üzrə | 11 638,25 | 27 064,09 |
| QM asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| QM sair kreditorlar | 686 189,46 | 497 328,88 |
| **Sair qısamüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **QM Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 748 388,99 | 570 754,06 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 18 311 760,86 | 15 167 610,43 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **38 291 387,39** | **33 770 499,28** |

| Gəlirlər | Məbləğ (manatla) |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 24 013 514,34 |
| birbaşa sığorta üzrə sığorta haqları | 21 728 215,56 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 557 306,82 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 1 637 502,27 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 90 489,69 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | 898 173,85 |
| **İnvestisiya gəlirləri üzrə** | 697 603,23 |
| **Subroqasiya gəlirləri** | 498 902,90 |
| **Sair gəlirlər** | 1 231 062,47 |
| **CƏMİ GƏLİRLƏR** | 27 339 256,79 |

| Xərclər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat xərcləri:** | 16 290 422,07 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 12 333 516,54 |
| qaytarılan sığorta haqları üzrə | 1 102 988,89 |
| tənzimləmə xərcləri | 198 907,46 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 2 539 689,21 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 115 319,97 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| **İşlərin aparılması xərcləri** | 11 399 657,28 |
| **Sair xərclər** | 17 284,10 |
| **CƏMİ XƏRCLƏR** | 27 707 363,45 |
| **Maliyyə mənfəəti (zərəri)** | -368 106,66 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -368 106,66 |
| **Mənfəət vergisi** | 0,00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | -368 106,66 |

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI

**AUDİTOR RƏYİ**

Bakı şəhəri 15.03.2018-ci il

"AXA MBASK" Sığorta Şirkəti ASC – nə dair

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 04.12.2017-ci il tarixli AT/147 saylı İCAZƏ əsasında fəaliyyət göstərən "ASON AUDİT" MMC-nin auditoru Talıbov Tariyel Aslan oğlu (07.07.2014-cü il tarixli 080817 saylı SA/293 seriyalı lisenziya), "ASON AUDİT" MMC-nin direktoru O.S.Vəkilov və "AXA MBASK"Sığorta Şirkəti ASC -nin İdarə Heyətinin sədri Selçuk Adıgüzel arasında bağlanmış 05 mart 2018-ci il tarixli 07/18 saylı müqaviləyə əsasən 01.01.2017-ci ildən 31.12.2017-ci ilədək olan dövrün mənə təqdim olunmuş mühasibat sənədləri əsasında maliyyə hesabatlarının auditini apardım.

Auditor yoxlamasına təqdim edilmiş sənədlərin düzgünlüyünə sifarişçi təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır. Mənim vəzifəm həmin sənədlərə əsasən aparılmış audit nəticəsində sifarişçinin maliyyə vəziyyətinə (maliyyə-təsərrüfat əməliyyatlarının qanuniliyinə), illik hesabatları maddələrinin doğruluğuna (mühasibat ucotunun ümumi vəziyyətinə) qiymət verməkdir və mən yalnız bu rəydə əks olunmuş mülahizələrimə görə məsuliyyət daşıyıram.

Göstərilən hallar ümumilikdə işin vəziyyətinə müəyyən təsir göstərir, lakin ümumi maliyyə vəziyyətini təhrif etmir.

Mən auditi Beynəlxalq Audit Standartları əsasında apardım. Həmin standartların tələblərinə görə, mən etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyam ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olum.

Qulluq borcumla əlaqədar apardığım audit ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu qanuni göstərilənlərə, nizamnamənin müddəalarına ümumən uyğundur.

Audit zamanı əldə edilmiş auditor sübutları imkan verir ki, aparılmış mühasibat işlərinin ümumi vəziyyətinə rəy verilsin.

Rəy 15.03.2018-ci il tarixdə eyni qüvvəyə malik 2 nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektində, ikincisi isə "ASON AUDİT" MMC-də saxlanılır.

İcraçı: "ASON AUDİT" MMC –in direktoru: O.S.Vəkilov

Auditor: T.A.Talıbov

# "Societe de Courtage" Sığorta və Təkrarsığorta Brokeri MMC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

manatla

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 13 960,63 | 12 585,62 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 12 557,76 | 11 301,98 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 1 087,25 | 1 256,70 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **27 605,64** | **25 144,30** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **2 462 240,84** | **1 312 319,83** |
| birbaşa sığorta üzrə | | |
| **təkrarsığorta əməliyyatları üzrə:** | **2 406 654,62** | **1 296 734,55** |
| - təkrarsığortaçı üzrə | 68 220,09 | 4 734,57 |
| - təkrarsığortalı üzrə | 2 338 434,53 | 1 291 999,98 |
| asılı təşkilatlar üzrə | | |
| **büdcə üzrə** | **52 004,70** | **12 068,36** |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | | |
| sığortalılara verilən borclar üzrə | | |
| **sair debitorlar** | **3 581,52** | **3 516,92** |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **193 737,85** | **91 252,78** |
| kassa | | |
| hesablaşma hesabı | 56 807,52 | 3 392,72 |
| valyuta hesabı | 136 921,83 | 87 851,90 |
| depozit hesablar | | |
| sair pul vəsaitləri | 8,50 | 8,16 |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | **144,00** | **255,66** |
| gələcək hesabat dövrlərinin xərcləri | 144,00 | 129,00 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | 126,66 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **2 656 122,69** | **1 403 828,27** |
| **CƏMİ AKTİVLƏR** | **2 683 728,33** | **1 428 972,57** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **155 783,00** | **155 783,00** |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidənqiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **221 387,83** | **140 595,08** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -3 440,98 | 11 401,17 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 224 828,81 | 129 193,91 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **377 170,83** | **296 378,08** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | | |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **2 305 185,96** | **1 131 274,10** |
| təkrarsığortaçı üzrə | 2 248 719,89 | 1 126 539,53 |
| təkrarsığortalı üzrə | 56 466,07 | 4 734,57 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **2 305 185,96** | **1 131 274,10** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **1 371,54** | **1 320,39** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 1 371,54 | 1 320,39 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **1 371,54** | **1 320,39** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **2 306 557,50** | **1 132 594,49** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2 683 728,33** | **1 428 972,57** |

### 31 dekabr 2017-ci il tarixində tamamlanan il üzrə MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

manatla

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 333 723,09 |
| **CƏMİ GƏLİRLƏR** | **333 723,09** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 215 979,28 |
| **Sair xərclər** | 99 136,13 |
| **CƏMİ XƏRCLƏR** | **315 115,41** |
| **Maliyyə mənfəəti (zərəri)** | 18 607,68 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergitutmadan əvvəlki mənfəət (zərər)** | 18 607,68 |
| **Mənfəət vergisi** | 7 206,51 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 11 401,17 |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Societe de Courtage" Sığorta və Təkrarsığorta Brokeri Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**

**Rəy**

1.Biz, "Societe de Courtage" Sığorta və Təkrarsığorta Brokeri Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra - "Cəmiyyət") 31 dekabr 2017-ci il tarixində tamamlanan il üzrə maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən, bu hesabata əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq. Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və göstərilən tarixdə başa çatan il üzrə Cəmiyyətin maliyyə nəticələrini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2.Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

3.Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4.Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5.Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"İmdad Audit" MMC-nin baş direktoru və auditoru İlham Süleymanov**
**28 mart 2018-ci il**
**Auditor təşkilatının ünvanı:** AZ1111,
Bakı şəhəri, Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, 2C
**Telefonlar:** (+994 12) 569-41-61;
(+994 50) 201-66-10 **e-mail:** i.suleymanov@imdadaudit.az

# Bakcell daha bir sosial layihəyə start verdi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell Sosial və İctimai Psixologiya Tədqiqatları Mərkəzi (CSPS) ilə birlikdə yeni bir sosial layihənin icrasına başlayıb. Altı ay davam edəcək bu layihənin əsas məqsədi həssas əhali qruplarında sosial sahibkarlıq bacarıqlarının artırılması üçün portalın yaradılmasıdır.

Layihə çərçivəsində əlverişsiz sosial şəraitdə yaşayan, lakin sahibkarlıq və praktik bacarıqları olan şəxslərin iş tapmasına və ya onların məhsul və xidmətlərinin geniş kütləyə çatdırmasına dəstək göstəriləcək. Bu təşəbbüs müəyyən müddətdən sonra həmin şəxslərin sosial rifahının yüksəlməsinə və onların cəmiyyətə uğurlu inteqrasiyasına xidmət edəcək.

Layihənin xüsusi internet səhifəsində layihə iştirakçıları üçün şəxsi profil yaradılacaq və həmin səhifə vasitəsilə onlar öz məhsul və xidmətlərini potensial müştərilərə təqdim və təklif edə biləcəklər. Həmçinin, işəgötürən şirkətlər qeyd olunan sayta daxil olmaqla iştirakçıların CV məlumatları ilə tanış olub, onlarla birbaşa əlaqə yaratmaq imkanına malik olacaqlar. Layihə iştirakçılarına iş tapmaq və yaxud öz məhsul və xidmətlərini satmaq imkanını yaratmaqla yeni portal onlar üçün sosial rifahın yüksəldilməsi və cəmiyyətə uğurlu və sürətli inteqrasiyası üçün lazimi şəraitin yaradılmasını təmin edəcək.

"Özünün geniş miqyaslı korporativ sosial məsuliyyət proqramı ilə tanınan Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqlar və digər həssas əhali qruplarına aid insanlara dəstək göstərmək və onların rifahını yüksəltmək üçün yeni imkanlar axtarır. Yeni layihə vasitəsilə biz əlverişsiz sosial şəraitdə yaşayan insanlara iş tapmaqda və öz məhsul və xidmətlərini təklif etməkdə dəstək göstərəcəyik", - deyə Bakcell şirkətinin İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar departamentinin rəhbəri Süheyla Cəfərova bildirib.

# «AZRE TƏKRARSIĞORTA» ASC-nin 1 yanvar 2018-ci il tarixinə BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 54 298,95 | 44 391,29 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 393 260,88 | 331 449,47 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 22 786 729,89 | 34 301 889,36 |
| dövlət qiymətli kağızları | | 11 515 159,47 |
| qeyri-dövlət qiymətli kağızları | 22 786 729,89 | 22 786 729,89 |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 6 921 500,00 | 3 921 500,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 30 155 789,72 | 38 599 230,12 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | 8 287 871,77 | 8 847 934,01 |
| birbaşa sığorta üzrə | | |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 5 106 530,62 | 3 289 846,36 |
| - təkrarsığortaçı üzrə | 454 215,25 | |
| - təkrarsığortalı üzrə | 4 652 315,37 | 3 289 846,36 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | 973 914,85 |
| iddia tələbləri üzrə | 1 455 243,44 | 1 455 243,44 |
| işçi heyəti üzrə | | |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 1 726 097,71 | 3 128 929,36 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 21 411 266,98 | 17 786 039,26 |
| kassa | 3 959,65 | 1 138,39 |
| hesablaşma hesabı | 2 191 298,47 | 2 517 278,60 |
| valyuta hesabı | 5 248 866,97 | 508 731,51 |
| depozit hesablar | 13 956 594,55 | 14 750 500,00 |
| sair pul vəsaitləri | 10 547,34 | 8 390,76 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 35 792 877,12 | 30 884 691,57 |
| dövlət qiymətli kağızları | 35 792 877,12 | 30 884 691,57 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 7 930 382,26 | 6 048 642,63 |
| həyat sığortası sahəsi üzrə | 879 500,97 | 612 783,65 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 7 050 881,29 | 5 435 858,98 |
| **Sair qısamüddətli aktivlər:** | 2 637,97 | 0,00 |
| gələcək hesabat dövrlərinin xərcləri | 2 637,97 | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | 40,00 | 40,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | 73 425 076,10 | 63 567 347,47 |
| **CƏMİ AKTİVLƏR** | 103 580 865,82 | 102 166 577,59 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 50000000 | 50 000 000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | 5 766 000,00 | 5 766 000,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | 5 766 000,00 | 5 766 000,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 19 682 392,45 | 21 576 527,91 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 15 504 784,60 | 21 394 135,46 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 4177607,85 | 182 392,45 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | 75 448 392,45 | 77 342 527,91 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | 22 304 738,18 | 23 690 961,20 |
| Həyat sığortası sahəsi üzrə : | 1 344 081,08 | 1 118 873,94 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 20 960 657,10 | 22 572 087,26 |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 5 744 211,87 | 887 100,35 |
| təkrarsığortaçı üzrə | 4 886 641,43 | 887 100,35 |
| təkrarsığortalı üzrə | 857 570,44 | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 28 048 950,05 | 24 578 061,55 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | 83 523,32 | 245 988,13 |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | 42 184,50 | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 41 338,82 | 245 988,13 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 83 523,32 | 245 988,13 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 28 132 473,37 | 24 824 049,68 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 103 580 865,82 | 102 166 577,59 |

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 51 308 494,62 |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 50 390 137,87 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 826 197,57 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 92 159,18 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -3 267 962,65 |
| **İnvestisiya gəlirləri üzrə** | 6 436 064,90 |
| **Subroqasiya gəlirləri** | 136 070,72 |
| **Sair gəlirlər** | 24 884,20 |
| **CƏMİ GƏLİRLƏR** | **54 637 551,79** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **18910034,27** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 9 005 857,95 |
| qaytarılan sığorta haqları üzrə | 1 040 052,69 |
| tənzimləmə xərcləri | 2 992,94 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 8 861 130,69 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 7 573 569,86 |
| **Sair xərclər** | 2 342 116,39 |
| **CƏMİ XƏRCLƏR** | **28 825 720,52** |
| **Maliyyə mənfəəti (zərəri)** | 25 811 831,27 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 25 811 831,27 |
| **Mənfəət vergisi** | 4 417 695,81 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 21 394 135,46 |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 4 417 695,81 | 5 391 610,66 |
| Əlavə dəyər vergisi | 28 889,12 | 28 889,12 |
| Gəlir vergisi | 73 700,34 | 73 700,34 |
| Əmlak vergisi | 260,06 | 260,06 |
| Torpaq vergisi | | |
| Aksizlər | | |
| Ödəmə mənbəyində vergi (4%) | 499 040,75 | 499 040,75 |
| Sair vergilər | 777 897,52 | 463 944,76 |
| Sosial sığorta və təminat | 112 214,92 | 112 214,92 |
| Məcburi ödənişlər (0,3%) | 276 307,27 | 68 882,46 |
| İqtisadi sanksiyalar | | |

FCHAIN CORPORATION

**Müstəqil Auditorun Hesabatı**

«AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Bakıxanov küçəsi 6, "Bridge Plaza".

**Rəy**

Biz «AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2017-ci il tarixinə olan mühasibat balansı hesabatından, mənfəət və zərər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Şirkətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"FChain Audit" MMC-nin
Direktoru: Valid Hüseynov

Auditoru: Sadıxov Azad

14 mart 2018-ci il
Azərbaycan Respublikası, Bakı, Mətbuat prospekti, 35c.

# Bakı Sığorta ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 1 649 851,28 | 1 647 453,83 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 103 984,80 | 324 559,51 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 1 155 000,00 | 1 300 000,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | 1 155 000,00 | 1 300 000,00 |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2 908 836,08** | **3 272 013,34** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **36 125,10** | **22 117,14** |
| **Debitor borcları:** | **539 790,83** | **565 461,72** |
| birbaşa sığorta üzrə | 162 669,24 | 219 872,59 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | **32,22** | |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | 32,22 | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 100 475,46 | 60 193,96 |
| iddia tələbləri üzrə | 13 594,46 | 13 594,46 |
| işçi heyəti üzrə | | 79 607,07 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 263 019,45 | 192 193,64 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **6 774 494,27** | **6 024 395,16** |
| kassa | 6 485,55 | 12 707,32 |
| hesablaşma hesabı | 79 564,80 | 138 471,72 |
| valyuta hesabı | 710 382,41 | 1 561 109,19 |
| depozit hesablar | 5 977 857,16 | 4 311 808,40 |
| sair pul vəsaitləri | 204,35 | 298,53 |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **33 120,43** | **93 395,32** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 33 120,43 | 93 395,32 |
| **Sair qısamüddətli aktivlər:** | **84 280,13** | **12 279,51** |
| gələcək hesabat dövrlərinin xərcləri | 515,33 | 1 871,80 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | 83 764,80 | 10 407,71 |
| **Sair aktivlər** | **684 350,02** | **738 464,74** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **8 152 160,78** | **7 456 113,59** |
| **CƏMİ AKTİVLƏR** | **11 060 996,86** | **10 728 126,93** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **8 925 439,65** | **8 925 439,65** |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | **177 055,20** | **177 055,20** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 177 055,20 | 177 055,20 |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **- 184 924,50** | **- 158 864,99** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 237 271,44 | 262 498,88 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | - 68 466,80 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | - 422 195,94 | - 352 897,07 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **8 917 570,35** | **8 943 629,86** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **1 476 398,56** | **1 106 619,68** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 1 476 398,56 | 1 106 619,68 |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **14 227,59** | **15 642,67** |
| təkrarsığortaçı üzrə | 5 710,59 | 15 642,67 |
| təkrarsığortalı üzrə | 8 517,00 | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **1 490 626,15** | **1 122 262,35** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **106 345,53** | **70 162,90** |
| əməyin ödənilməsi üzrə | 18 785,69 | 3 651,12 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | 20 614,17 | 5 145,47 |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 66 945,67 | 61 366,31 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | **546 454,83** | **592 071,82** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **652 800,36** | **662 234,72** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **2 143 426,51** | **1 784 497,07** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **11 060 996,86** | **10 728 126,93** |

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **1 303 031,68** |
| birbaşa sığorta üzrə sığorta haqları | 1 287 022,75 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 1,73 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 12 536,00 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 3 471,20 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **430 053,77** |
| **İnvestisiya gəlirləri üzrə** | **624 608,13** |
| **Subroqasiya gəlirləri** | **63 279,33** |
| **Sair gəlirlər** | **79 801,72** |
| **CƏMİ GƏLİRLƏR** | **2 500 774,63** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **633 632,22** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 283 221,09 |
| qaytarılan sığorta haqları üzrə | 73 977,66 |
| tənzimləmə xərcləri | 1 308,00 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 275 125,47 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | **1 512 874,14** |
| **Sair xərclər** | **26 144,67** |
| **CƏMİ XƏRCLƏR** | **2 172 651,03** |
| **Maliyyə mənfəəti (zərəri)** | **328 123,60** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **328 123,60** |
| **Mənfəət vergisi** | 65 624,72 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 262 498,88 |

Address: # Izmir Plaza 23.
Baku AZ 1073, Azerbaijan
Tel./Fax: (+994 12) 497 43 03
Cell: (+994 50) 223 35 52
E-mail: said@azerinet.com
gaaudit@gmail.com
G&A Audit Company LTD

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"BAKI SIĞORTA" Açıq Səhmdar CəmiyyətininRəhbərliyinə**

**Rəy**

Biz **"Bakı Sığorta" ASC-nin**31 dekabr 2017-ci il tarixinə balans, mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, ASC-ninqoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq audit standartlarına (ISA) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının apardığımız auditə aid olan etik normalara uyğun olaraq ASC-dən asılı deyilik və biz digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirməmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə və vergihesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə və vergihesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyəvə vergi hesabatlarını hazırladıqda, rəhbərlik ASC-niləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyəvə vergi hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyəvə vergi hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyəvə vergi hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- ASC-nin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında ASC-nin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər ASC-ninfasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"G and A Audit" MMC-nin

Direktoru/Auditor: Səid Qafarov

## Azərbaycan Rusiyaya turizm səfərlərinin sayına görə ilk onluğa daxildir

TurStat analitik agentliyi 2017-ci ildə Rusiyaya turizm səfərlərinin sayına görə ölkələrin reytinqini tərtib edib.

AZƏRTAC həmin agentliyin məlumatlarına istinadla bildirir ki, 2017-ci ildə Azərbaycandan Rusiyaya turist səfərlərinin sayı 876 min, il ərzində Rusiyaya əcnəbi turistlərin səfərlərinin ümumi sayı isə 24 milyondan çox olub.

Keçən il Rusiyaya turist səfərlərinin sayına görə Azərbaycan beşinci yeri tutur.

2017-ci ildə Rusiyaya turist səfərlərinin sayına görə ölkələrin ilk onluğuna Ukrayna (8,7 milyon səfər), Qazaxıstan (3,5 milyon), Çin (1,5 milyon), Finlandiya (1 milyon), Polşa (714 min) və digər ölkələr daxildir.

Keçən il Rusiyaya turist səfərlərinin sayında artma görə Çin və Cənubi Koreya lider olub. Çinlilərin Rusiyaya səfərlərinin sayı əvvəlki ilin göstərici ilə müqayisədə 15 faiz artaraq 1,5 milyona, Cənubi koreyalıların Rusiyaya turist səfərlərinin sayı isə 58 faiz artaraq 254 minə bərabər olub.

## Bu qış "Şahdağ"a 120 000-dən çox turist gedib

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan "Şahdağ" Turizm Mərkəzi 2017-2018-ci il qış mövsümünü bağlı elan edib.

Mərkəzdən Trend-ə verilən məlumata görə, "Şahdağ" Turizm Mərkəzində qış mövsümü hava şəraitindən asılı olaraq dekabr ayından aprel ayına kimi davam edir.

Sayca altıncı olan qış mövsümü ərzində turizm mərkəzini 120 000-dən çox turist ziyarət edib. Bu, turizm mərkəzinin fəaliyyət dövrü müddətində bu günə qədər olan rəqəmlər sırasında rekord saydır. Turistlərin 50%-ə qədərini xarici turistlər təşkil edib. Onların arasında isə ən çox Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Səudiyyə Ərəbistanı, Qətər, Böyük Britaniya və Küveyt kimi ölkələrdən olan turistlər üstünlük təşkil edib.

Bu mövsüm də hər il olduğu kimi, ənənəvi qış əyləncələri ilə yanaşı, xizəkçiliyə xüsusi maraq göstərilib, qonaqların 30%-i xizək sürmək üçün mərkəzə üz tutan xizək həvəskarları olub.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Bazarda 7 il liderlik edən şirkət

Heç kimə sirr deyil ki, istehlakçılar bir çox yerli istehsal mallarına güvənmirlər. Bu da təsadüfi deyil. İllərlə istehlakçılar idxal olunan malların yüksək keyfiyyətinə əmin olmuş, bəzi yerli malların qeyri-qənaətbəxş olduğunun şahidi olmuşlar. Amma son illər yerli bazarda Azərbaycan istehsalı olan keyfiyyətli məhsullar da yer almaqdadır. Bu məhsullardan biri də METAK şirkətinin istehsal etdiyi plastik borulardır.

1997-ci ildə fəaliyyətə başlamış METAK şirkəti ilk vaxtlar polad boruların ölkəyə idxalı və satışı ilə məşğul olmuşdur. 2005-ci ildən bazar tələbatını nəzərə alaraq plastik boru və fitinqlərin istehsalına başlamışdır.

METAK şirkətinin satış direktoru Tural Xəlfəyevin sözlərinə görə, Sovet dövründə və müstəqilliyin ilk illərində santexnika işlərində dəmir borulardan geniş istifadə olunurdu. Bu zaman ustalar çox əziyyət çəkirdilər. Boruların kəsilməsi, əyilməsi, yiv açılaraq birləşdirilməsi, sözün əsl mənasında, zülm idi. Bundan başqa, dəmir borular bir neçə ildən sonra paslanır, deşilir və su sızıntıları yaranırdı. Bu çətinlikləri nəzərə aldıqda plastik boruya keçid bir "inqilab" idi. Biz plastik boru istehsalına başlayanda Azərbaycanda bu bazar, demək olar ki, tamamilə xarici şirkətlərin nəzarətində idi. Türkiyə istehsalı olan "Firat" markalı borular daha çox satılırdı. Bundan başqa, "Dizayn Boru", "Hakan Plastik", "Pilsa" şirkətlərinin boru və fitinqləri də bazara daxil olmuşdular.

Plastik borunun quraşdırılması daha asan olduğundan yerli ustalar bu işi qısa müddətdə öyrənə bilmişlər. Qiyməti dəmir borular ilə müqayisədə daha aşağı olan plastik borulardan istifadə sürətlə yayılmışdır. 1990-cı illərdə yerli istehsalın olmamasından istifadə edən əsasən Türkiyə şirkətləri Azərbaycanın plastik boru və fitinqlər bazarını tutmuşdular.

METAK şirkətinin bazara necə daxil olması barədə satış direktoru Tural Xəlfəyev aşağıdakıları söylədi: "Biz 2005-ci ildə təmiz və çirkli su boruları, istilik sistemi boruları və fitinqlər istehsalına başladıqda bazara daxil olmağımız asan olmadı. Hamımız bilirik ki, ev təmirində boru işi çox həssas məsələdir. Çəkilən borular suvaq və kafelin altında qalır. Əgər su xətləri keyfiyyətsiz boru ilə çəkilərsə və bir müddət sonra xətdə sızma baş verərsə, bu, ev sahibinə baha başa gələ bilər. Belə olan halda ev sahibi ilə usta arasında da mübahisə yaranır. Buna görə, ustalar qorxurdular və yerli borunu almağı məsləhət görmürdülər. Ustalar hesab edirdilər ki, yerli boru keyfiyyətli ola bilməz və yerli boru ilə iş görsələr, böyük ehtimalla problem yaranacaqdır. Əksər ustalar ev sahiblərinə "Firat" boru almağı tapşırırdılar. Bu səbəbdən bazara daxil olmaq bizim üçün çətin idi.

Birinci gündən şirkətimizin rəhbərliyinin bir fikri olub: uzunmüddətli yanaşma ilə yalnız keyfiyyətli məhsul istehsal edilməli və hər bir alıcı dinlənməlidir. Təbii ki, ilk vaxtlarda təcrübəmiz az olduğundan bizim də çətinliklərimiz olurdu. Lakin biz məsuliyyətsizlik etmədik, çalışdıq, keyfiyyətə ciddi nəzarət sistemini tətbiq etdik. Keyfiyyət ilə bərabər, məhsullarımıza 50 il zəmanət verdik və sözümüzün üstündə durduq. Bu yanaşma nəticəsində bazara daxil olmağı bacardıq. Ustalar yavaş-yavaş bizim plastik borulardan və fitinqlərdən istifadə etdilər. METAK heç vaxt keyfiyyətsiz məhsul istehsal edərək ustaları pis vəziyyətdə qoymamışdır.

Qısası, yerli istehsal olan boruya inam yox dərəcəsində idi. Çox çətin olsa da, bu inamı METAK yaratdı.

**METAK-ın yerli bazarda payı**

Şirkətin apardığı araşdırmalara görə, hazırda təmiz və çirkli su boruları, istilik sistemi boruları, fitinqlər bazarının təxminən 65%-nə METAK sahiblik edir. Qalan 35% digər yerli və xarici istehsalçılar arasında bölüşdürülür. Respublikamızın inşaat materialları bazarında şirkətin apardığı sorğuya və hesablamalara əsasən bu nisbət müəyyən edilmişdir. Bu yüksək bazar payı həm malların keyfiyyətli olmasının, həm də uğurlu satış sisteminin nəticəsidir. METAK artıq 7 ildir ki, bazarın lideridir. İstər xarici, istərsə də yerli şirkətlərin plastik boruları arasında ən çox METAK boruları satılır.

**50 il zəmanət**

Borulardan istifadə qaydaları haqqında məlumatlar şirkətin buraxdığı kataloqlarda, internet saytında qeyd edilmişdir. Müştərinin çətinliklərini dinləmək və həll etmək üçün iş saatlarında fəaliyyət göstərən telefon xətti mövcuddur, həmçinin şirkətin sosial şəbəkələrdəki hesabları vasitəsi ilə istifadəçilər əlaqə saxlaya bilirlər. METAK heç vaxt müştərilərin müraciətlərinə laqeyd yanaşmır. Müraciət daxil olan kimi şirkətin əməkdaşları müştərinin ünvanına gedərək məsələni araşdırır. Bir çox hallarda bacarıqsız ustalar düzgün qaynaqlama apara madığından, təzyiqin və istiliyin düzgün seçilməməsindən problemlər yaranır. İstər alıcı fərdi şəxs, istərsə də şirkət olsun, müraciət ucqar rayondan olsa belə, müştərinin ünvanına gedirlər. Usta dəvət olunur və səhvlər izah olunur. Əfsuslar olsun ki, çox zaman təcrübəsiz ustaların səhvləri olur. Hələ də bir çox ustaların bu sahədə maariflənməyə ehtiyacı var. Boruların aşağı təzyiqdən partlaması, su sızması kimi hallara rast gəlinməyib. METAK borularının ömrü ən azı 50 ildir. Yəni, müəyyən olunmuş təzyiq və istilik şərtləri daxilində boru və fitinqlərə 50 il zəmanət verilir.



**"METAK reklam deyil"**

Tural Xəlfəyevin sözlərinə görə, METAK bazarın böyük hissəsinə nəzarət edir. O, reklama başlamamışdan əvvəl bu nisbətə gəlib çatmışdır. T.Xəlfəyev qeyd etdi ki, əvvəlki illərdə məhsullarımızın daha da keyfiyyətli olmasına fokuslanmışdıq. Xüsusilə, ustalar bu keyfiyyətdən xəbərdar olmalı idilər. Çünki əksər hallarda ev sahibləri boru seçimini ustalara həvalə edirlər. Keyfiyyət ilə bərabər, bazardakı mövqeyimizi markalaşdıraraq, daha da bərkitmək üçün 2 il öncə reklamlara başlamışıq.

Sloqana gəldikdə isə, "Metak reklam deyil" sloqanını işlətməyimizin səbəbi verdiyimiz sözlərin əməl ilə arxasında durduğumuz, yalandan reklamla məşğul olmadığımız, həqiqətən, keyfiyyətli məhsullar istehsal etdiyimiz mesajını verməkdir. Bir çoxlarının etdiyi kimi, yalançı reklamlarla xalqı aldatmaq olmaz, METAK istehsaldan başlayaraq müştəri xidmətlərinə qədər olan bütün mərhələlərdə işinin keyfiyyəti ilə öyünür.

Qırılmaz kanalizasiya borularının Azərbaycanda ilk dəfə istehsalına METAK şirkəti başlamışdır. Tonlarla çəkisi olan yük avtomobili üzərindən keçdikdə belə qırılmayan kanalizasiya boruları polipropilendən istehsal olunur.

**Rəqabət inkişaf etmək üçün stimuldur**

Bazarda keyfiyyətsiz malların olduğu faktdır. Yerli plastik boru istehsalçılarının sayı 10-a qədərdir. Bunların arasında həddindən artıq keyfiyyətsiz məhsullar istehsal edən şirkətlər də var. Yerli istehsalçılar arasında ən çox çeşid METAK-dadır. Latun detallar da şirkət tərəfindən istehsal edilir.

Keyfiyyəti aşağı olan idxal malları da çoxdur. Hazırda Çindən gətirilən çox keyfiyyətsiz və ucuz borular bazara daxil olur. Çindən bizim maya dəyərindən də ucuz mallar gətirilir. Bu, bazardakı ən böyük problemlərdən biridir.

METAK-ın malları həmişə digər yerli istehsalçıların mallarından baha olub. Keyfiyyətə nəzarət, şirkətin xərclərini, zəmanət daxil olmaqla satışa kompleks yanaşmanı nəzərə alsaq, METAK-ın məhsullarının 10-15% baha olması qaçılmazdır.

**Yerli xammaldan istifadə məhsulların ucuzlaşmasına kömək edəcək**

Bu il Sumqayıtda SOCAR Polymer zavodunun işə düşəcəyi gözlənilir. Bu zavodda polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal ediləcəkdir. Bu məhsullar da METAK-ın istifadə etdiyi xammallardır. Xammalın daxili bazardan alınması şirkətə böyük ixrac üstünlüyü verəcək. Həmçinin, maliyyə baxımından da sərfəli olacaqdır. Hazırda xammal Cənubi Koreyanın, Almaniyanın və Səudiyyə Ərəbistanının bu sahədə tanınmış istehsalçılarından alınır.

Cənubi Koreyadan xammalın Azərbaycana gəlib çatması 1-1,5 ay çəkir. Xammalın ölkə daxilində əldə edilməsi isə onun qısa müddətdə və ucuz qiymətə alınmasına imkan verəcək. Bütün bunlar bir sıra məhsulların ucuzlaşmasına səbəb ola bilər.

**METAK şirkətinin zavodları**

Şirkətin Bakı, Sumqayıt, Neftçala və Qusar rayonunda istehsal sahələri mövcuddur. Balaxanı Sənaye Məhəlləsində, Neftçala Sənaye Məhəlləsində və Sumqayıt Sənaye Zonasında yerləşən zavodlarımızda bitkiçilik və meyvəçilik sektorları üçün plastik taralar (yeşiklər), Sumqayıtda isə 300 kq tutumu olan konteynerlər (böyük taralar) istehsal olunur. Bu konteynerlərin əsas alıcıları böyük soyuducu anbarlardır. Tara istehsalı müəssisəsi aqrar sahəyə yaxın olmalıdır. Bu səbəbdən bu istehsal ölkənin müxtəlif nöqtələrində qurulub. Qusarda beton dirəklər də istehsal edilir. Bu dirəklərdən üzümçülük və meyvəçilikdə istifadə olunur. Plastik borular və fitinqlər Bakıda Böyükşor ərazisində yerləşən zavodda istehsal edilir. Yaxın gələcəkdə içərisinə meyvələr qoyulan plastik qabların (viol) və tikişli dəmir boruların istehsalına başlanılacaq. Bu məqsədlə yeni zavod qurulması nəzərdə tutulub.

**İxrac genişləndirilir**

METAK brendini Rusiya və Qazaxıstan bazarında kifayət qədər tanıyırlar. METAK Rusiyada da istehsal sahəsinə malikdir və xüsusilə Rusiyanın cənubunda daha geniş tanınır. Rusiyaya fitinqlər, Qazaxıstana isə borular və fitinqlər ixrac edilir. Hazırda Bakıda köhnə binaların sökülərək, yerində yeni yaşayış komplekslərinin tikilməsi üzrə çoxlu pilot layihənin icrasına başlanmışdır. 2018-ci ildən bu layihələrin sürətlənməsi ilə METAK-ın satışlarının daha da artacağı gözlənilir.

Yerli tikinti şirkətlərinin əksəriyyəti METAK-a müraciət edirlər. Pilot layihəni icra edən şirkət üçün önəmli olan alacağı boruların keyfiyyətli olması və arxasında böyük şirkətin dayanmasıdır. Buna görə, pilot layihələri icra edən şirkətlər böyük istehsalçılara, əsasən də METAK-a müraciət edirlər. Son vaxtlar dövlət layihələri üçün alınan malların da keyfiyyətinə daha çox fikir verilir. İri dövlət layihələrində də METAK boruları geniş istifadə olunur.

Beləliklə, Azərbaycanın yerli bazarında möhkəm yer almış METAK şirkəti bu gün liderlər sırasındadır və əminik ki, gələcəkdə şirkət öz işini daha da genişləndirəcək, dünya bazarlarında öz layiqli yerini tutacaqdır.

**Yeganə MƏMMƏDOVA**

# Fondun Novruz bayramı münasibətilə keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılıb



Martın 17-də "Altun Saray" istirahət mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Novruz bayramı münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına və Novruz bayramına həsr olunmuş tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə dövlət və hökumət təmsilçiləri, Milli Məclisin deputatları, ölkədə fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri və müsabiqədə birinci yeri tutmuş jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media təmsilçilərini salamlayaraq əlamətdar bayramlar ərəfəsinə təsadüf edən belə görüşlərin xoş ənənə halını aldığını bildirib. Ölkə rəhbərliyinin mediaya yüksək diqqət və qayğısından söz açan icraçı direktor bunun nəticəsi kimi Fondun son illərdə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, kütləvi informasiya vasitələri ilə mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında münasibətlərin genişləndirilməsi məqsədilə həyata keçirdiyi layihələr barədə məlumat verib.

Daha sonra söz Azərbaycan Respublikası Prezidentinin köməkçisi - şöbə müdiri Əli Həsənova verilib. Novruz bayramı münasibətilə qonaqları və mətbuat işçilərini təbrik edən Əli Həsənov Fondun fərdi yazı müsabiqələrinin təşkilinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini xüsusi qeyd edib. Ə.Həsənov Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına hərtərəfli dövlət dəstəyi göstərildiyini vurğulayıb: "Jurnalistlərlə ünsiyyət çox xoşdur. Qələm sahibləri olan yerdə dövlətin, millətin problemləri lazımi dairələrə çatdırılır, onlar vasitəsilə biz həm öz cəmiyyətimiz, həm də xarici aləmlə ünsiyyətə giririk".

Əli Həsənov əlavə edib ki, 2017-ci il dövlətimizin inkişafında uğurlu il olub. Dövlətin inkişafı, sosial layihələr və nəzərdə tutulan digər layihələr uğurla icra edilir. 2018-ci ildə də bizi mühüm hadisələr gözləyir.

Prezidentin köməkçisi deyib ki, bu il ölkədə həm də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd ediləcək: "Bilirsiniz ki, dövlətimizin başçısının Sərəncamı ilə bu il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bu səbəbdən də nəinki Azərbaycanda, dünyanın hər yerində bu əlamətdar yubileylərlə bağlı silsilə tədbirlər keçiriləcək".

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi əmin olduğunu bildirib ki, Azərbaycan 2018-ci ili də uğurla başa çatdıracaq. Azərbaycanın mühüm, hələ də həll edilməyən problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, nəhayət, öz həllini tapacaq, işğal altında olan torpaqlarımız azad ediləcək, qaçqın və köçkünlər doğma yurdlarına qayıdacaqlar.

Sonra müsabiqədə birinci yerə layiq görülən jurnalistlər mükafatlandırılıb.

KİV əməkdaşlarının Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və Qarabağ həqiqətləri ilə bağlı elmi maarifləndirmə fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov Mətbuat Şurasının xüsusi mükafatına layiq görülüb.

## ETİBARSIZDIR

Abdullayeva Fəridə İbadulla qızının adına Bakı şəhəri, Nəsimi rayonu, Alı Mustafayev küçəsi ünvanına verilmiş seriya MN N-0079956 saylı çıxarış itdiyi üçün etibarsız sayılsın.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyeva qardaşı

**FAİQ MÖHBALIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının icraçı direktoru Fərasət Qurbanova anası

**HACIXANIM QURBANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının icraçı direktoru Fərasət Qurbanova anası

**HACIXANIM QURBANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500